www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 13-19 may 2026-cı il Çərşənbə № 18 (8867) Qiymәti 1 manat

**Xəbər**

## Naxçıvan təxribatının açılmayan sirri

yazısı səh.5-də

**Ölkə**

### Ermənistanın "40-cı otağının açarı" Bakıdadır



Revanşistlər seçkiqabağı debatlarda Azərbaycan faktorunu qabardır - İrəvanın gözləntisi...

yazısı səh.5-də

### Pul arxasınca paytaxta axın

yazısı səh.13-də

### Yayda qızıl daha da bahalaşacaq

yazısı səh.15-də

### Diplomatlar pensiyaya çıxanda 6 qat maaş alacaq

yazısı səh.13-də

### Dünyanın gözü Orta dəhlizdə

yazısı səh.15-də

### İlin sonundək MDB buraxıla bilər?

yazısı səh.6-da

### Rəsul Quliyevin partiyası YAP-a birləşir?

yazısı səh.2-də

### Ölkədə distant təhsil modelinin tətbiqi genişlənir

yazısı səh.10-da

### Asiyalı qanqsterləri Bakıya cəlb edən səbəb

yazısı səh.3-də

### Anklavlar problemi-sülh sazişindən əvvəl, ya sonra?

yazısı səh.11-də

### İranın Cənubi Qafqazda "ağa olmaq" iddiası

yazısı səh.4-də

### Erməni lobbisinin ABŞ-dəki pullu ruporu

yazısı səh.9-da

### Çin dilinə Azərbaycanda tələbat niyə artıb?

yazısı səh.10-da

# "BİR GÜLLƏLİK CANI OLAN" EUMA-PREZİDENTİN XƏBƏRDARLIĞININ KODLARI

Avropa İttifaqının Ermənistana yeni missiya göndərmək qərarı Qərbin regionda destabilizasiya niyyəti kimi izah edilir; Azərbaycan Prezidentinin sərt mesajının pərdəarxası, ekspert rəyləri...




yazısı səh.9-da

## Moskvanın bir həftədə Azərbaycanla bağlı iki ciddi səhvi

Rusiyanın dövlət kanalı "Dağlıq Qarabağ"ı ayrıca bir ərazi kimi göstərdikdən sonra "artsax parlamentinin spikerini" səfirlikdəki tədbirə dəvət etdi - Bakıdan sərt reaksiyalar

yazısı səh.8-də



Mixal Kaluqin

### Rusiya "Zəngəzur dəhlizi"nə qarşı - ilginc açıqlamalar

yazısı səh.6-da



Nərgiz Məhəmmədi

### İranın Nobel Sülh mükafatlı Nərgizi

yazısı səh.7-də



Mitropolit Şio

### Gürcüstanın yeni dini lideri haqda sensasion iddialar

yazısı səh.11-də

# Rəsul Quliyevin partiyası YAP-a birləşir?



Milli Məclisin sabiq sədri, hazırda ABŞ-də yaşayan Rəsul Quliyevin fəxri sədri olduğu Gələcək Azərbaycan Partiyasının (GAP) fəaliyyətini dayandıraraq üzvlərinin Yeni Azərbaycan Partiyasına (YAP) birləşmək üçün müraciət etməsi ilə bağlı məlumatlar var.

**Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Azər Badamov** Modern.az-a açıqlamasında onlara belə bir rəsmi müraciətin daxil olmadığını, gələcəkdə belə bir addım atılarsa, rəhbər orqanlar tərəfindən siyasi və hüquqi aspektlər nəzərə alınmaqla qərar qəbul oluna biləcəyini bildirib: "Məlumdur ki, müxtəlif dövrlərdə Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kəndli Partiyası, Milli Qurtuluş Partiyası, Azərbaycan Yurddaş Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası və Azərbaycan Demokratik Sahibkarlar Partiyası kimi siyasi təşkilatlar fəaliyyətlərini dayandıraraq Yeni Azərbaycan Partiyasına qoşulmaq barədə qərar qəbul ediblər. Bu addımlar həmin partiyaların ölkənin aparıcı siyasi qüvvəsi ətrafında birləşmək, dövlətçilik maraqlarına xidmət etmək və Azərbaycanın inkişaf strategiyasına dəstək vermək niyyətindən irəli gəlirdi".

Azər Badamov Gələcək Azərbaycan Partiyasından YAP-a birləşmək istəyi ilə bağlı partiyanın İdarə Heyətinə hər hansı rəsmi müraciət etmədiyini bildirib.

"Təbii ki, gələcəkdə belə bir müraciət təqdim olunarsa, məsələ partiyanın rəhbər orqanlarında geniş şəkildə müzakirə ediləcək siyasi və hüquqi aspektlər nəzərə alınmaqla müvafiq qərar qəbul oluna bilər". Rəsul Quliyevin Azərbaycandakı təmsilçisi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu da birləşmək barədə xəbəri təkzib edib. Ancaq Rəsul Quliyevin son sosial media paylaşımları birləşmək barədə iddiaları inandırıcı edir.



## Prezident bp-nin baş icraçı direktorunu qəbul edib

**Prezident İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edib.**

Dövlət başçısı Meq O'Nili bp şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, onun rəhbərliyi ilə SOCAR-bp uğurlu əməkdaşlığının gələcəkdə də davam edəcəyinə əminliyini bildirib.

Ölkəmizlə bp arasında icra olunan layihələrin sayının artmaqda olduğunu deyən Azərbaycan Prezidenti bunun əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu nümayiş etdirdiyini vurğuladı və tərəfdaşlığımızın strateji xarakter daşıdığını diqqətə çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Meq O'Nil Bakıda olmaqdan şərəf hissi keçirdiyini dedi.

Bp şirkətinin baş icraçı direktoru Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunması ilə bağlı uzaqgörən liderliklərini xüsusi vurğulayıb.

Meq O'Nil bu xüsusda Bakının inkişafına, o cümlədən yollara və infrastruktura yatırılan sərmayəyə toxundu.

Söhbət zamanı bp-nin ölkəmizdə icra etdiyi enerji, o cümlədən bərpaolunan enerji layihələri qeyd olundu, şirkətin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin önəminə toxunuldu.

Görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu qeyd edildi, SOCAR-bp əməkdaşlığının perspektivləri müzakirə olundu.



## Zakir Həsənov Slovakiyaya niyə getmişdi?

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Slovakiyanın baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakın dəvəti ilə bu ölkəyə rəsmi səfər edib.**

Zakir Həsənov Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Robert Kalinakla görüşüb.

Görüşdə Azərbaycanla Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıqların inkişaf perspektivlərini müzakirə ediblər.

Qarşılıqlı hədiyyə mübadiləsindən sonra general-polkovnik Z.Həsənov xatirə kitabını imzalayıb.

## İnsan alveri qurbanları ən çox bu bölgədədir

**Azərbaycanda insan alveri qurbanlarının ən çox qeydə alındığı şəhər açıqlanıb.**

Modern.az xəbər verir ki, bu barədə Milli Məclisin bu gün keçirilən plenar iclasında müzakirə edilən insan alverinə qarşı mübarizə üzrə milli koordinatorun illik məlumatında qeyd olunub.

Belə ki, 2025-ci ildə insan alveri qurbanlarının şəhər və rayonlar üzrə bölgüsündə ilk sırada Bakı qərarlaşıb.

Hesabatda paytaxtda 9 insan alveri qurbanının müəyyən edildiyi bildirilib.

Sənədə əsasən, Zərdab rayonunda 3, Abşeron, Ağdam, İsmayıllı, Gəncə, Sumqayıt, Kürdəmir, Kəlbəcər, Naxçıvan və Şəmkirdə isə hər birində 2 nəfər insan alveri qurbanı qeydə alınıb.

Ağsu, Ağdaş, Astara, Beyləqan, Biləsuvar, Quba, Şabran, Laçın, Lənkəran, Masallı, Gədəbəy, Göyçay, Zəngilan, Şamaxı, Yevlax və Xocalıda isə hər birində 1 nəfər insan alveri qurbanı müəyyən edilib.



## Lökbatanda yanan "Kontakt Home"un anbarı olub

**"Bu gün məhsullarımızın saxlandığı anbarlardan birində yanğın baş verib". Bununla bağlı "Kontakt Home"un sosial şəbəkə hesabında məlumat verilib. "Ən önəmlisi odur ki, heç kim zərər çəkməyib, hadisə yerindəki bütün insanlar salamatdır. Operativ müdaxiləyə görə təcili yardım və yanğınsöndürmə xidmətlərinə təşəkkür edirik. Mövcud vəziyyətlə əlaqədar olaraq bəzi sifarişlərinizin çatdırılmasında qısamüddətli gecikmələr yaşana bilər. Hansı sifarişlərin təsirləndiyini dəqiqləşdirən kimi həmin müştərilərimizlə birbaşa əlaqə saxlayacağıq.**

Vəziyyət aydınlaşdıqca yeni məlumatları paylaşacağıq. Səbirinizə və etimadınıza görə minnətdarıq", - deyə paylaşımda deyilir.

## "Qarabağ" ilk transferini etdi

**"Qarabağ"ın yay transfer pəncərəsində heyətinə qatacağı ilk futbolçu artıq müəyyənləşib.**

Kiprin "Omoniya" (Aradipu) klubunun şərəfini qoruyan fransalı vinger Jali Muaddib yeni mövsümdən Ağdam təmsilçisinin uğurları üçün tər tökəcək. Bu keçidi rəsmən təsdiqləyən Nikosiya klubunun baş meneceri Giorqos İrakleus bildirib ki, 25 yaşlı futbolçu ilə Azərbaycan çempionu arasında tam razılıq əldə olunub.

Menecerin sözlərinə görə, Muaddib aylar öncə "Qarabağ"dan təklif alsa da, komandasına sadiqlik nümayiş etdirərək "Omoniya"nın liqada qalması üçün sona qədər mübarizə aparacağını vəd edib.

Cari mövsümdə Kipr klubunda 31 oyuna çıxaraq 4 qol və 7 məhsuldar ötürmə ilə yadda qalan vingerin müqaviləsi yayda başa çatdığı üçün o, yeni komandasına azad agent statusu ilə qoşulacaq.

İrakleus həmçinin qeyd edib ki, müqavilədəki bəzi kiçik maliyyə bəndlərinə rəğmən, klub futbolçunun gedişinə mane olmayacaq. (Offsideplus.az)

## Mayda yay istisi

**Azərbaycanda mayın 12-də havanın 30 dərəcə isti olacağı gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 15-18° isti, gündüz 25-29° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 756 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 60-70 %, gündüz 45-55 % təşkil edəcək.



## Azərbaycanda hakim çatışmazlığı var

**Azərbaycanda hakimlərin ümumi ştat sayı 800-dür. Hazırda ölkə üzrə fəaliyyət göstərən hakimlərin sayı 705 nəfər təşkil edir. Hakimlərin bölgüsünə əsasən, 36 hakim Ali Məhkəmədə, 144 hakim apelyasiya məhkəmələrində fəaliyyət göstərir. Bundan əlavə, ağır cinayətlər məhkəmələri üzrə 53, hərbi məhkəmələr üzrə 24, inzibati məhkəmələr üzrə 45, kommersiya məhkəmələri üzrə isə 26 hakim fəaliyyət göstərir.**

Ən çox hakim sayı isə rayon və şəhər məhkəmələrinin payına düşür. Belə ki, həmin məhkəmələr üzrə hakimlərin sayı 377 nəfərdir.




## Bakıda bütün avtobus və taksilər metropolitenə verilir?

**Bakı Metropoliteni" QSC-nin "BakuBus" və "Bakı Taksi Xidməti" MMC-lərlə birləşdirilməsi bütün avtobus və taksi xidmətlərini əhatə etmir.**

Modern.az xəbər verir ki, bunu "Bakı Metropoliteni" QSC-nin sədri Vüsal Aslanov Trend.az-a və ATV telekanalına müsahibəsində deyib.

Onun sözlərinə görə, dəyişiklik yalnız "BakuBus" və "Bakı Taksi" şirkətlərinə aiddir: ""BakuBus" Bakı şəhərində bir çox marşrutu idarə edən, həmçinin Gəncə və Xankəndi şəhərlərində fəaliyyət göstərən dövlət şirkətidir. "Bakı Taksi" isə sərnişinlərimizin "London taksisi" adlandırdığı xüsusi taksilərdən ibarətdir. Digər marşrutlar və avtobus xidmətləri isə öz müstəqil fəaliyyətlərini davam etdirəcəklər".

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

# Asiyalı qanqsterləri Bakıya cəlb edən səbəb

## Təhlükəsizlik üzrə ekspert deyir ki, Azərbaycan paytaxtını əvvəllər "rahat nəfəs almaq" üçün uyğun məkan hesab edənlər artıq bu fikirdən daşınmaqdadır



**"Batuwatte Chamara" ləqəbli transmilli kriminal fiqurlarından biri hesab edilən mafiya lideri və narkobaron Manoj Suranqa Azərbaycanda saxlanıldıqdan sonra Şri-Lankaya təhvil verilib. "Qafqazinfo" "Newswire.lk"a istinadən xəbər verir ki, DTX-nin əməliyyatla təsbit edib ələ keçirdiyi və ölkədən çıxarılan mafiya başçısını mayın 7-si Şri-Lanka hüquq-mühafizə orqanının Bakıya gələn xüsusi qrupu ekstradisiya prosesini reallaşdıraraq ölkəsinə aparıb.**

48 yaşlı kriminal avtoritet mayın 10-u axşam saatlarında Hindistanın Yeni Dehli şəhəri vasitəsilə Şri-Lankaya çatdırılıb. İllərlə hüquq-mühafizə orqanlarından gizlənməyi bacaran cinayətkar əməllərini planlı şəkildə ört-basdır edib. Əvvəlcə Dubayda yaşasa da, təxminən bir il əvvəl Azərbaycana gəlib. Daha sonra Azərbaycanda aşkar edilərək saxlanılıb. Şri-Lanka Dövlət Kəşfiyyat Xidmətinin (SIS) mətbuata açıqlamasına görə, xüsusilə təhlükəli kriminalın tapılaraq saxlanılması əməliyyatı SIS ilə Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti arasında birgə əməkdaşlığı çərçivəsində həyata keçirilib. Şri-Lanka polisinə görə, mafiya başçısı silahlı hücumlar, sifarişli qətllər və mütəşəkkil cinayət fəaliyyətlərində ittiham olunur. Onun iri narkotik dövriyyəsi şəbəkəsinin təşkilatçısı olduğu bildirilir. İstintaqa görə, o, kristal metamfetaminin Şri-Lankaya daşınması və orada ticarət məqsədilə yayılması şəbəkəsinə rəhbərlik edib. Şübhəlinin Hindistandakı kriminal qruplaşmalarla münasibətlərinin olduğu da iddia olunur. Polis mənbələri onun təxminən 25 illik cinayət keçmişinə malik olduğunu açıqlayıb. Məlumata görə, o, cinayət aləminə daxil olmazdan əvvəl model kimi işləməyə səy göstərib. İlk dəfə qanunsuz silah qaçaqmalçılığı ittihamı ilə həbs edildikdən sonra orada yeraltı aləmə qoşulub və inkişaf edib.

Qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan beynəlxalq axtarışda olan bir sıra xarici kriminal avtoritetlərin saxlanıldığı ölkələrdən birinə çevrilib. Hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatlar nəticəsində Hindistan və Pakistan əsilli müxtəlif cinayətkar qruplaşmaların üzvləri də məhz Bakıda tutulub. Azərbaycan hüquq-mühafizə orqanlarının beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirdiyi əməliyyatlar ölkənin transmilli cinayətkarlığa qarşı mübarizədə etibarlı tərəfdaş olduğunu bir daha nümayiş etdirir. Bəs Bakı niyə transmilli cinayətkarların "təhlükəsiz limanı" kimi görünür? Hindistan, Pakistan və Cənubi Asiya mənşəli transmilli cinayətkarlar niyə məhz Bakını seçirlər?

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev** "Yeni Müsavat"a deyib ki, Azərbaycan həm geostrateji mövqeyinə, həm də Şərqlə Qərbi birləşdirən beynəlxalq nəqliyyat dəhlizlərinə görə cinayətkar şəbəkələrin diqqət mərkəzindədir. Son illər beynəlxalq axtarışda olan kriminal avtoritetlərin, narkotik şəbəkələrinin rəhbərlərinin və sifarişli qətllərdə adı keçən şəxslərin Bakıya üz tutmaları kriminaldan çox, geosiyasi və iqtisadi reallıqlarla əlaqəlidir: "Bir vaxtlar Dubay, Kuala Lumpur, Banqkok və İstanbul beynəlxalq kriminal şəbəkələrin tranzit və gizlənmə məkanları sayılırdı. İndi həmin siyahıda Bakı da görünməyə başlayıb. Amma məsələ Azərbaycanın "kriminal mərkəzə çevrilməsi" deyil. Əksinə, son həbslər göstərir ki, Bakı bu şəxslərin sonda yaxalandığı şəhərə çevrilir. Çünki Azərbaycan uzun illər regionda daha çox enerji və logistika təhlükəsizliyi üzərindən tanınsa da, son dövrdə təhlükəsizlik strukturlarının beynəlxalq əməkdaşlıq imkanları ciddi şəkildə genişlənib. Xüsusilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti transmilli cinayətkarlıqla mübarizədə artıq regional deyil, beynəlxalq koordinasiya sisteminin iştirakçısı kimi çıxış edir".

**Arzu Nağıyev deyib ki, Bakını əvvəlcə "rahat nəfəs almaq" üçün uyğun məkan hesab edənlər artıq bu fikirdən daşınmaqdadır:** "Azərbaycan coğrafi baxımdan Avropa ilə Asiyanın kəsişməsində yerləşir. Buradan həm Türkiyəyə, həm Rusiyaya, həm Körfəz ölkələrinə, həm də Mərkəzi Asiyaya çıxış imkanları mövcuddur. Kriminal şəbəkələr üçün belə məkanlar həmişə cəlbedici olub. Çünki qaçaqmalçılıq, çirkli pul dövriyyəsi, sənəd dəyişmə və tranzit hərəkətləri üçün logistika mühüm rol oynayır. İkincisi, Bakı uzun müddət beynəlxalq kriminal şəbəkələrin diqqətindən bir qədər kənarda görünən şəhər idi. Məhz buna görə bəzi cinayətkarlar düşünürdü ki, Avropa paytaxtlarında və ya Dubayda üzərlərində olan ciddi nəzarət Azərbaycanda daha zəif olacaq. Bu isə onların ən böyük yanlış hesablamasına çevrildi. Əslində kriminalların psixologiyası çox oxşardır. Onlar elə ölkə axtarırlar ki, viza ilə giriş nisbətən rahat olsun. Maliyyə və daşınmaz əmlak bazarında hərəkət etmək mümkün olsun. Xarici vətəndaş axını çox olduğundan "ərimək" asanlaşsın. Bakı son illərdə məhz belə şəhərə çevrilmişdi. Sürətlə böyüyən meqapolis, minlərlə əcnəbi, geniş tikinti sektoru, nağd pul dövriyyəsinin müəyyən hissədə yüksək olması və regional tranzit imkanları kriminal dairələrin diqqətini çəkirdi. Amma onların hesablaya bilmədiyi başqa bir məqam var. Azərbaycan artıq 1990-cı illərin postsovet xaosu içində olan ölkə deyil. Bu gün Azərbaycan təhlükəsizlik sistemi təkcə daxili nəzarətlə işləmir. Xüsusilə narkotik qaçaqmalçılığı, transmilli mafioz şəbəkələr və sifarişli qətllərlə bağlı məlumat mübadiləsi beynəlxalq səviyyədə aparılır. Manoj Suranqanın tutulması da göstərdi ki, Bakı artıq gizlənmək üçün deyil, izlərin toplandığı məkanlardan birinə çevrilib".

**Arzu Nağıyev diqqəti başqa mühüm detala çəkir:** "Cənubi Asiya kriminal şəbəkələri son illərdə ciddi transformasiya keçirir. Hindistan, Pakistan və Şri-Lankadan çıxan qruplaşmalar artıq klassik küçə mafiyası kimi yox, transmilli biznes modeli ilə işləyirlər. Narkotik daşımaları, kriptovalyuta əməliyyatları, "hawala" sistemi üzərindən pul köçürmələri, saxta sənəd şəbəkələri və miqrasiya marşrutları bir-birinə bağlanıb. Belə strukturlar üçün Bakı həm tranzit, həm görüş, həm də müvəqqəti məskunlaşma zonası kimi görünə bilərdi. Lakin son hadisələr göstərir ki, Azərbaycan bu oyuna meydan olmaq istəmir. Əksinə, rəsmi Bakı beynəlxalq təhlükəsizlik sistemində etibarlı tərəfdaş imicini gücləndirməyə çalışır. Çünki bu gün transmilli cinayətkarlıq artıq təkcə hüquq problemi deyil. Bu, dövlətlərin reputasiyası, maliyyə sistemi və milli təhlükəsizliyi ilə bağlı məsələdir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**




## Azərbaycanda hantavirusa yoluxan yoxdur

**Hazırda hantavirusun Azərbaycanda yayılma riski aşağıdır. Bu barədə APA-nın sorğusuna cavab olaraq, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı Nümayəndəliyindən məlumat verilib.**

Bildirilib ki, Ümumdünya Səhiyyə Təşkilatı Beynəlxalq Səhiyyə Qaydaları çərçivəsində bir neçə ölkə ilə birlikdə sürətli cavab tədbirləri üzərində çalışır. Əsas diqqət xəstələrin müalicəsinə, təhlükəsizliyə və virusun daha da yayılmasının qarşısını almağa yönəlib: "İnsanlar adətən hantavirusa yoluxmuş gəmiricilərlə təmas nəticəsində, xüsusilə onların sidiyi, nəcisi və ya tüpürcəyi vasitəsilə yoluxurlar. Bəzən çirklənmiş tozun nəfəsə çəkilməsi də infeksiyaya səbəb ola bilər. Nadir hallarda gəmirici dişləmələri də virusu ötürə bilər. Qapalı və ya yaxşı havalandırılmayan yerlərin təmizlənməsi, əkinçilik, meşə təsərrüfatı işləri və ya gəmiricilərin olduğu yerlərdə qalmaq yoluxmaq üçün risk faktoru daşıyır".

Bildirilib ki, virusun insandan insana yoluxma halı çox nadirdir və yalnız Amerikada rast gəlinən Andes virusu ilə müşahidə olunub. Belə yoluxmalar baş verdikdə, adətən ailə üzvləri və ya partnyorlar arasında, xüsusilə xəstəliyin erkən mərhələsində uzunmüddətli və yaxın təmas zamanı olur.

Bu virusun diaqnozu üçün Azərbaycanda laboratoriya imkanları varmı?

O da bildirilib ki, Azərbaycanda həm insan sağlamlığı, həm də heyvan sağlamlığı laboratoriyalarında hantavirusun PCR üsulu ilə yoxlanılması imkanı mövcuddur: "ÜST həmçinin Andes virusu üçün etibarlı testlərin təmin edilməsi məqsədilə Avropa üzrə laboratoriyalarla əməkdaşlıq edir.

Lazım gəlsə, nümunələr təsdiqləmə üçün təhlükəsiz şəkildə ÜST-nin ixtisaslaşmış referans laboratoriyalarına göndərilə bilər. ÜST yaxın zamanda region üzrə test proseslərini dəstəkləmək üçün yenilənmiş laboratoriya təlimatlarını yayımlayacaq".

Səhiyyə Nazirliyindən verilən məlumata görə, Azərbaycanda hantavirus infeksiyasına şübhəli və ya təsdiqlənmiş yoluxma halları qeydə alınmayıb. Nazirlikdən qeyd edilib ki, hantavirus Azərbaycan üçün endemik hesab olunmur və mövcud epidemioloji vəziyyət virusun yayılma riskinin aşağı olduğunu göstərir.

Qeyd edək ki, hantavirusa ilk yoluxma simptomları gəmi səyahətində olan Niderlanddan olan yaşlı bir cütlükdə qeydə alınıb və onlar indiyə kimi həyatını itirən üç nəfər arasındadır. Buna baxmayaraq, ilkin yoluxmanın harada baş verdiyi hələ də müəyyən edilməyib.

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

# Trampın Tehranla bağlı yeni planı var

**ABŞ Prezidenti Donald Tramp İranın təklifini qəbuledilməz adlandırıb və Tehranla bağlı konkret planının olduğunu bildirib. O, bunu Ağ Evdə çıxışı zamanı deyib. "İranın təklifi qəbuledilməzdir. Mənim İranla bağlı planım var", - ABŞ lideri bildirib.**

Tramp onun strategiyasının mövcudluğunu şübhə altına alanlara isə sərt cavab verib: "Çoxları deyir: Onun planı varmı? Əlbəttə ki, mənim planım var. Mənim indiyə qədərki ən yaxşı planım var".

Tramp vurğulayıb ki, təzyiq altında deyil və geri çəkilmək niyyəti yoxdur: "Onlar düşünürlər ki, mən yorulacağam, bezəcəyəm və ya təzyiq altında qalacağam. Amma heç bir təzyiq yoxdur".

**Tramp ABŞ-nin nəticə əldə edəcəyini qeyd edib:** "Biz tam qələbə qazanacağıq. Hətta nəzəri olaraq artıq hərbi baxımdan tam qələbə qazanmışıq".

Yeri gəlmişkən, Ağ Evin Milli İqtisadiyyat Şurasının direktoru Kevin Hasset bildirib ki, İranla danışıqlar tələsmədən aparılmalıdır.

O, ABŞ Prezidenti Donald Trampla Çin Xalq Respublikasının sədri Si Cinpin arasında görüşün də danışıqlara təsir edəcəyini bildirib. Hassetin fikrincə, Çin İranla münasibətləri yenidən qiymətləndirə bilər: "Bu, Tramp və Si Cinpin arasında müzakirə mövzularından biri olacaq".

Çinin Xarici İşlər Nazirliyi (XİN) Pekinin İranla bağlı mövqeyinin dəyişməyəcəyini açıqlayıb. Çin XİN bunu ABŞ-nin ÇXR-ə aid üç şirkətə qarşı sanksiya tətbiq etməsini şərh edərkən bildirib.

Qeyd edək ki, Tramp mayın 13-də Çinə dövlət səfəri edəcək.



# İsrail ABŞ-dən asılılığı azaltmaq istəyir

**İsrailin baş naziri Binyamin Netanyahu ümid edir ki, Fars körfəzi dövlətləri ilə əlaqələrini gücləndirən ölkəsi yaxın 10 il ərzində ABŞ hərbi dəstəyindən tədricən imtina edəcək. "ABŞ ilə aramızdakı hərbi əməkdaşlığın maliyyə komponentini sıfıra endirmək istəyirəm", - Netanyahu CBS telekanalında yayımlanan "60 Minutes" proqramına müsahibəsində deyib.**

Netanyahunun sözlərinə görə, İsrail hər il ABŞ-dən təxminən 3.8 milyard dollarlıq hərbi yardım alır. ABŞ 2018-2028-ci illər ərzində İsrailə ümumilikdə 38 milyard dollarlıq hərbi yardım göstərməyə razılaşıb.

Netanyahu bildirib ki, indiki vaxt ABŞ-İsrail maliyyə münasibətlərini yenidən qurmaq üçün tamamilə uyğundur: "Növbəti Konqresi gözləmək istəmirəm. İndi başlamaq istəyirəm".

İsrailə hərbi yardımın ayrılması uzun illərdir ABŞ Konqresində hər iki partiya tərəfindən yekdilliklə dəstəklənib. Amma 2023-cü ilin oktyabrında Qəzzada müharibə başlayandan sonra həm siyasətçilər, həm də ictimaiyyət arasında dəstək zəifləyib.

Netanyahu Birləşmiş Ştatlarda İsrailə olan dəstəyin zəifləməsini sosial media platformalarının həndəsi silsilə ilə böyüməsi ilə əlaqələndirib. Baş nazirin sözlərinə görə, bir sıra xarici ölkələr sosial şəbəkələrdə geniş manipulyasiyalar aparıb və bu tendensiya İsrailin imicinə ciddi zərər vurub. Lakin Netanyahu konkret olaraq hansı dövlətləri nəzərdə tutduğunu açıqlamayıb.

**Ötən həftə İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammiti təkcə Rusiyada deyil, İranda da etirazlar doğurub. Tehran bu tədbirdən məmnun görünmür, hətta bəzi hallarda özü üçün təhdid mənbəyi kimi yanaşdığını da qeyd edir. Məsələn, Azərbaycan əleyhinə sistemli olaraq kampaniya aparan və İran dövləti tərəfindən maliyyələşən "Səhər" TV kanalı bununla bağlı "Avropanın İrəvan addımı: Cənubi Qafqazda yeni siyasi siqnallar müşahidə olunur" başlıqlı məqalə ilə çıxış edib. (mənbə: Tia.az).**

# İranın Cənubi Qafqazda "ağa olmaq" iddiası

## Avropa Siyasi Birliyinin tədbirini keçirən İrəvan qalıb kənarda, Bakı hədəf götürülüb




Telekanalın rəsmi səhifəsində yayınlanan məqalədə deyilir ki, Avropa siyasi dairələrinin Ermənistanda toplantı keçirməsi, Cənubi Qafqazda güc balansının dəyişməsi fonunda həm Bakıya, həm Moskvaya, həm də İrəvana yönəlik çoxqatlı mesajlar daşıyır: "İrəvanın Avropa üçün siyasi platforma kimi seçilməsi 44 günlük müharibədən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqlarla birbaşa bağlıdır".

TV qeyd edir ki, sammitdə Azərbaycan üçün də mesajlar var: "Azərbaycan üçün verilən əsas mesaj da budur ki, Avropa Bakı ilə yalnız enerji tərəfdaşı kimi deyil, sülh sazişi və sərhəd təhlükəsizliyi kimi mövzularda öz rolunu artırmağa çalışacaq. Avropanın İrəvan üzərindən aktivləşməsi həmçinin Bakıya "regiondakı proseslər yalnız sizinlə və Moskva ilə məhdud deyil" mesajını verir".

İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammitinə İran mediasının bu cür reaksiyası gözlənilməz deyil, amma burada diqqətçəkən məqam Tehranın narahatlığının açıq şəkildə mediaya ötürülməsidir. İranın dövlət telekanalının bu mövzunu qabartması göstərir ki, məsələ təkcə informasiya deyil, həm də siyasi siqnaldır.

Məqalədə Azərbaycanla bağlı verilən mesajlar Bakıya alternativ güc mərkəzlərinin artdığını xatırlatmaq məqsədi daşıyır. Amma Tehran unutmamalıdır ki, Azərbaycan artıq regionda müstəqil və balanslaşdırılmış siyasət yürüdən əsas oyunçulardan biridir, kənar mesajlarla istiqamətini dəyişən aktor deyil.

Ümumilikdə bu reaksiya bir daha göstərir ki, Tehran son müharibədən sonra Cənubi Qafqazda yeni təşəbbüslərə, məsələn, "Tramp yolu"na qarşı olduğunu təkcə reaksiya göstərmək niyyətində deyil, həm də bu proseslərə təsir etmək, hətta "ağalıq" istəyindədir.

**Siyasi təhlilçi Sona Əliyeva bütün bunların təsadüf olmadığını vurğuladı:** "İrəvanda keçirilən Avropa Siyasi Birliyinin sammiti ətrafında yaranan reaksiyalar göstərdi ki, məsələ təkcə Ermənistanın ev sahibliyi etdiyi növbəti beynəlxalq tədbir deyil. Xüsusilə İran mediasının buna verdiyi sərt və narahat reaksiyalar onu göstərir ki, Tehran regionda formalaşan yeni siyasi dinamikanı artıq açıq təhlükəsizlik məsələsi kimi qəbul etməyə başlayıb. "Səhər" TV kimi dövlətə yaxın media resurslarının sammiti xüsusi vurğulaması təsadüfi deyil. Burada əsas diqqətçəkən məqam Avropanın Ermənistanda görünən siyasi aktivliyindən daha çox, Cənubi Qafqazda yeni güc konfiqurasiyasının formalaşmasıdır. İran anlayır ki, 2020-ci ildən sonra bölgədə yaranan reallıq əvvəlki balansları ciddi şəkildə dəyişib. Ukrayna müharibəsi Rusiyanın regiondakı ənənəvi təsir imkanlarını zəiflədib. Bu boşluqda isə fərqli aktorlar daha görünən olmağa çalışır. Türkiyə hərbi-siyasi təsirini artırır, Avropa siyasi iştirakını genişləndirmək istəyir, Azərbaycan isə artıq regional proseslərin mərkəzində qərar verən əsas oyunçulardan biri kimi çıxış edir. Məhz bu dəyişiklik Tehranı narahat edən əsas faktorlardan biridir. İran mediasında Azərbaycana yönələn mesajların mahiyyəti də buradan qaynaqlanır. Bakıya dolayısı yolla mesaj göndərilir ki, regionda alternativ siyasi mərkəzlər formalaşır və yeni oyun qaydaları yaranır. Ancaq görünən odur ki, Azərbaycan artıq xarici təsir mərkəzlərinin diktəsi ilə hərəkət edən ölkə deyil. Bakı son illərdə həm regional təhlükəsizlik, həm enerji siyasəti, həm də diplomatik münasibətlər baxımından daha balanslı və müstəqil xətt formalaşdırmağa çalışır. Tehranın əsas narahatlığı isə düşündüyümüzdən daha dərindir. Burada söhbət yalnız Avropa sammitindən getmir. İran regionda öz təsir imkanlarının zəifləməsini və sərhədləri yaxınlığında yeni geosiyasi xəttin qurulmasını risk kimi görür. Xüsusilə Zəngəzur dəhlizi ətrafında gedən müzakirələr, Türkiyənin artan rolu və Qərbin bölgəyə daha açıq maraq göstərməsi Tehran üçün strateji həssaslıq yaradıb. Amma reallıq budur ki, İranın Cənubi Qafqazda əvvəlki dövrlərlə müqayisədə daha məhdud təsir imkanları var. Sanksiyalar iqtisadi potensialını zəiflədib, region ölkələri daha çoxşaxəli siyasət yürütməyə başlayıb, Ermənistan belə artıq yalnız bir mərkəzə bağlı qalmaq istəmir. Buna görə Tehran daha çox siyasi mesajlar, psixoloji təzyiq, media vasitəsilə mövqeyini qorumağa çalışır. İrəvandakı sammit bir daha göstərdi ki, Cənubi Qafqaz artıq yalnız lokal münaqişə zonası deyil. Bölgə artıq qlobal rəqabətin yeni siyasi meydanlarından birinə çevrilir. Belə bir şəraitdə ən böyük üstünlük emosional reaksiyalar verən dövlətlərin yox, çoxvektorlu və çevik siyasət qura bilən aktorların əlində olacaq".

**ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlının İranın qərəzli münasibətinə mövqeyi olduqca sərt oldu:** "İran ötən həftə Ermənistanda keçirilən Avropa Siyasi Birliyinin sammitinə kəskin etirazını bildirir. Ancaq təəssüf doğuran odur ki, İran molla rejimi öz modundadır. Yenə də Azərbaycan dövlətini hədəfə götürür. Sammitin keçirildiyi Ermənistana heç bir etiraz etmir. Bunun adı nədir? Bilirsiniz ki, Azərbaycan bu tədbirdə yalnız video bağlantı ilə qoşulub və cənab prezident həm Avropa Şurasının, həm də Avropa İttifaqının Azərbaycana qarşı qərəzli formada beynəlxalq normaları, beynəlxalq hüququ kobud şəkildə pozduğunu onların diqqətinə çatdırıb. Bundan İran niyə narahat olur ki? Digər tərəfdən, İranın "Səhər" kanalı uzun illərdir ki, Azərbaycanı hədəfə götürüb, bütün fəaliyyətini Azərbaycana qarşı hədələmə, gözdən salma, qərəzli, böhtan, əsası olmayan verilişlərə yönəldib. Ən maraqlısı da odur ki, kanalın hazırladığı verilişləri bütün İran əhalisinə göstərmirlər. Yalnız Azərbaycanla sərhəd rayonlarda, bölgələrdə yayırlar. Bütün bunlar ölkəmizə təzyiq xarakter daşıyır. Biz bilmirik ki, Azərbaycanı hədəfə alan Avropa təsisatlarının əsassız ittihamlarına cavab verək, yoxsa İran molla rejiminin şantajına, hədəsinə. "Səhər" kanalının ağ yalanına baxın. Avropanı Bakı ilə enerji tərəfdaşı kimi təqdim edir. Ancaq nədənsə Avropa deputatlarının Bakı neftini, qazını almamağa çağırışını qeyd etmir. Tehran əsassız yerə yenə də Azərbaycana qarşı qərəzli mövqeyini rəsmi media orqanlarında yaymağa başlayıb. Azərbaycan artıq uzun illərdir ki, dünyaya sübut edib ki, regionda müstəqil, heç bir dövlət və ya təşkilatdan asılı olmayan və balanslaşdırılmış siyasət yürüdür. Kiminsə marağından və ya hansısa təşkilatın diktəsi ilə çıxış etmir. Tehranın narahatlığının əsasında Cənubi Qafqazda "Tramp yolu" nun reallaşması da durur. Molla rejimi ilk gündən buna qarşı olub. Amerikanın Ermənistana nəzarət etmək istəyini və bunu özləri üçün ciddi təhlükə mənbəyi kimi görürlər. Ancaq unudurlar ki, Amerikanın dünyada ən çox səfirlik işçilərinin sayı, təxminən 1500 nəfər yaxın şəxs məhz Ermənistanda fəaliyyət göstərir. O, Ermənistan ki, Rusiyadan sonra ona ən çox enerji, neft, qaz, hərbi texnika, raket və s. dəstək verən İran dövlətidir. İran Ermənistana hansı səbəbdən böyük dəstək verir? Əlbəttə ki, bunun səbəbi Azərbaycana olan mənfi münasibətidir. Bütün bunları xalqımız çox yaxşı bilir. Ona görə də İran boş yerə Azərbaycanı hədəfə almasın".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

# Ermənistanın “40-cı otağının açarı” Bakıdadır

## Revanşistlər seçkiqabağı debatlarda Azərbaycan faktorunu qabardır - İrəvanın gözləntisi...



**Ermənistanda iyunun 7-də keçiriləcək kritik parlament seçkilərinin təbliğat mərhələsinin başlaması ilə seçkiqabağı ritorika da sərtləşib ki, bu da əslində daxili siyasi zəifliyin göstəricisidir. Revanşist qüvvələrin seçkilərdə Azərbaycan faktorunu ön plana çıxarması həm seçici emosiyalarını manipulyasiya etmək cəhdidir, həm də real gündəmi ört-basdır etmək istəyidir. Lakin bu yanaşma əsassız da deyil.**

“Biz bilirik ki, Ermənistanın siyasi mühitində Azərbaycan xalqına və dövlətinə qarşı nifrət bəsləyən bir çox dairələr var və onlar hakimiyyətə gələrsə, Ermənistan xalqı dərin bəlaya düşəcək”. Bu barədə Prezident İlham Əliyev ötən həftəsonu Zəngilan şəhər sakinləri ilə görüşündə bildirib. Dövlət başçısı əlavə edib ki, Azərbaycan xalqı ermənilərə heç bir pislik etməyib: “Onların bizə qarşı nifrətinin səbəblərini isə yəqin ki, psixiatrlar, psixoloqlar və həkimlər araşdırmalıdır. Ermənistan cəmiyyətində Azərbaycana qarşı nifrət bəsləyən siyasi qüvvələr olduğu müddətcə ayıq-sayıq olmalıyıq”, - deyə dövlət başçısı qeyd edib.

Maraqlıdır ki, məhz revanşist qüvvələr Ermənistandakı seçkiqabağı debatlarda Azərbaycan və İlham Əliyev faktorunu qabardır, Paşinyan hakimiyyətinin Bakı və Ankaradan dəstəkləndiyini iddia edirlər. Ekspertlərə görə, bu ifadələri təkrarlayanlar iddiaların Paşinyana qarşı işlədiyini düşünürlər. Əslində isə onlar yalnız rəsmi İrəvan üçün çox əlverişsiz olan reallıqları təsdiqləyirlər. Çünki Ermənistan heç vaxt müstəqil amil olmayıb və ölkənin siyasi gələcəyinin, Şərq nağıllarında olduğu kimi mühüm “40-cı otağının açarı” Azərbaycandır. Yəni görünən budur ki, təkcə Paşinyanın deyil, həm də Ermənistanın gələcəyi Azərbaycanın verəcəyi reaksiya və qərarlarından asılı olacaq, Prezidentin çıxışından da bunu sezmək çətin deyil. Seçkilərdən sonra hansı qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, İrəvan bu reallığı qəbul etməyə məcbur olacaq. Azərbaycan yeni savaşlar istəmir, amma düşmən üçün “sülh göyərçini” də deyil.

**Hüquqşünas Qulamhüseyn Əlibəylinin “Yeni Müsavat”a dediyinə görə, hər bir dövlət çalışır ki, qonşu dövlətlərdə onun milli təhlükəsizliyini təhdid edən hakimiyyət formalaşmasın:** “Ona görə də müasir beynəlxalq praktikada qonşu dövlətlərin bir-birinin daxili siyasi proseslərinə dolayı və ya birbaşa təsir göstərməyə cəhd etməsi halları nisbətən geniş yayılıb. Ermənistanla Azərbaycan arasındakı münasibətlər uzun müddət hərbi, siyasi və diplomatik qarşıdurma ilə müşayiət olunub. Bu mənada Azərbaycan Ermənistanda keçiriləcək seçkilərin nəticələrinə görə hazırkı hakimiyyətin yenidən qalib gəlməsində maraqlıdır. Nəzərə alsaq ki, qarşıdakı seçkilərdə hazırkı hakimiyyətin alternativi Rusiyanın himayəsində olan, Azərbaycanı yeni müharibə və işğalla hədələyən revanşist qüvvələrdir, bu marağı şərtləndirən amilləri başa düşmək olar”.

**Onun fikrincə, Azərbaycan Ermənistandakı parlament seçkilərinə birbaşa təsir göstərə bilməz və belə bir rıçaqlara da malik deyil:** “Lakin Azərbaycan seçkilərə dolayı yollarla təsir göstərə bilər və əslində göstərməkdədir. Erməni cəmiyyətində "xəyali Ermənistan" ideyası, Azərbaycana qarşı ərazi iddiaları, revanşizm əhval-ruhiyyəsi nisbətən çoxluq təşkil etsə də, real Ermənistan ideyası da cəmiyyətdə geniş yayılır. Bu gün Ermənistanın daxili siyasi həyatının gündəmində regional təhlükəsizlik məsələləri, sülh prosesi, beynəlxalq iqtisadi və logistika layihələri, qarşılıqlı faydalı əməkdaşlıq və digər bu kimi məsələlər tədricən olsa da genişlənməkdədir. Bu baxımdan Azərbaycanın həyata keçirdiyi regional siyasət əslində dolayı yolla seçkilərə təsir göstərmək mexanizmi hesab oluna bilər".

**Q.Əlibəyli bildirib ki, Azərbaycanla Ermənistan arasında vasitəçilərsiz birbaşa əlaqələrin qurulması, sülh müqaviləsinin paraflanması, Zəngəzur dəhlizi ilə əlaqədar məsələnin razılaşdırılması, beynəlxalq təşkilatlarda hər iki dövlətin bir-birlərinə qarşı iddialarının dayandırılması, sərhəd məsələlərinə dair qismən razılaşmalar, Rusiyadan, Qazaxıstandan Ermənistana göndərilən malların Azərbaycan ərazisindən keçməklə qonşu ölkəyə çatdırılması, hər iki ölkə arasında birbaşa iqtisadi və ticarət əlaqələrinin qurulması seçkilərə müəyyən mənada təsir göstərə bilər:** “Başqa sözlə, seçici revanşistlərin əsas silahı olan xəyali "Böyük Ermənistanda"kı vəziyyətlə hazırkı hakimiyyətin həyata keçirdiyi real Ermənistanın və sülh prosesinin ilkin dividentlərini müqayisə etmək imkanı qazanır. Əlbəttə, uzun əsrlər xəstə təxəyyülün hökm sürdüyü Ermənistan cəmiyyətində hamının bunu eyni dərəcədə dərk edəcəyini düşünmək də sadəlövhlük olardı. Lakin bunu dərk edənlərin sayı kifayət qədərdir və bu say getdikcə artmaqdadır. Ümid etmək istərdim ki, parlament seçkiləri gününədək reallığı dərk edənlərin sayı çoxluq təşkil edəcək və seçkilərin taleyini həll edəcək".

**Hüquqşünas hesab edir ki, müharibədə məğlubiyyət Ermənistan cəmiyyətində hakimiyyətə qarşı narazılığı artırıb, seçki kampaniyalarının əsas mövzularından birinə çevrilib:** “Bəzi siyasi qüvvələr Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müdafiə etdiyi halda, digərləri daha sərt və revanşist mövqe nümayiş etdirirlər. Beləliklə, Azərbaycan faktoru Ermənistan seçkilərində əsas siyasi müzakirə mövzularından birinə çevrilir. Azərbaycan beynəlxalq təşkilatlar və regional əməkdaşlıq layihələri vasitəsilə də Ermənistandakı siyasi proseslərə dolayı təsir göstərə bilər. Azərbaycanın beynəlxalq arenada artan nüfuzu Ermənistan cəmiyyətində ölkənin xarici siyasət kursu ilə bağlı müzakirələri gücləndirir. Əgər Azərbaycan beynəlxalq platformalarda daha uğurlu diplomatik nəticələr əldə edirsə, bu, Ermənistan hakimiyyətinin nüfuzuna mənfi təsir göstərə bilər. Seçicilər mövcud hakimiyyəti zəif diplomatik siyasətdə ittiham edə bilərlər. Eyni zamanda, sülh danışıqlarında əldə olunan nəticələr seçkilərdə hakim partiyanın mövqeyini gücləndirə və ya zəiflədə bilər. Nəticə etibarilə, Azərbaycan Ermənistandakı seçkilərə birbaşa müdaxilə etmədən də müxtəlif siyasi, iqtisadi, diplomatik və informasiya vasitələri ilə təsir göstərə bilər”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



# Naxçıvan təxribatının açılmayan sirri

## Təxribatın arxasında “üçüncü dövlətin dayandığı versiyası” yenə gündəmdə

**İran tərəfinin yanaşması ondan ibarətdir ki, dronlar İran tərəfindən atılmayıb, hansısa 3-cü ölkələrin təxribatı həyata keçirilib. Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ötən həftəsonu jurnalistlərə açıqlamasında deyib.**

“İrandan Naxçıvana dron hücumu baş verərkən dərhal Azərbaycan tərəfinin buna reaksiya olmuşdur. Bundan sonra İran tərəfi ilə çoxsaylı təmaslarımız olmuşdur. İran İslam Respublikasının Prezidenti tərəfindən cənab Prezidentə zəng olunmuşdur. O cümlədən bu məsələ ilə bağlı mən bir neçə dəfə İran xarici işlər naziri Abbas Əraqçi ilə danışıqlar aparmışam. İran tərəfinin yanaşması ondan ibarətdir ki, dronlar İran tərəfindən atılmayıb, hansısa 3-cü ölkələrin təxribatı həyata keçirilib. Onlar bu məsələnin ciddi şəkildə araşdırılması barədə Azərbaycan tərəfinə vəd vermişlər. Bundan sonra bizim hərbçilər xətti ilə də təmaslar olub”, - deyə nazir vurğulayıb.

Naxçıvan istiqamətində baş verən hadisə ilə bağlı “üçüncü tərəf” versiyası adətən çox vaxt ya məsuliyyətdən yayınmaq, ya da vaxt qazanmaq məqsədi daşıyır. Eyni zamanda Ceyhun Bayramovun qeyd etdiyi diplomatik təmaslar davam etdirilməli, lakin bu proses konkret nəticələrə bağlanmalıdır. Dron təhlükəsi artıq regionda yeni reallıqdır və bu tip hücumların mənbəyindən asılı olmayaraq qarşısını almaq üçün texnoloji üstünlük həyati əhəmiyyət daşıyır. Sərhəd və xüsusilə Naxçıvan istiqamətində müşahidə və erkən xəbərdarlıq sistemləri daha da təkmilləşdirilməlidir.

Bundan başqa, informasiya müharibəsi də unudulmamalıdır. “Üçüncü tərəf” iddiaları fonunda müxtəlif dezinformasiya kampaniyaları aktivləşə bilər. Azərbaycan bu sahədə də operativ və faktlara əsaslanan kommunikasiya aparmalıdır ki, həm daxili auditoriya, həm də beynəlxalq ictimaiyyət doğru məlumatlandırılsın. Azərbaycan üçün ən düzgün yol diplomatik təzyiq, hərbi hazırlıq və informasiya siyasətinin paralel şəkildə yürüdülməsidir. Əks halda, bu cür “açılmayan sirlər” gələcəkdə daha təhlükəli presedentə çevrilə bilər.

**Siyasi şərhçi Aydın Quliyev** bu barədə “Yeni Müsavat”a bildirib ki, İrandan Naxçıvan hava limanı ərazisinə dronlarla vurulan zərbənin kökü və mahiyyəti tam şəkildə açılmalıdır: “Bunu Azərbaycanın və İranın qonşuluq mövqeyi də tələb edir. Ancaq lap əvvəldən də bəlli idi ki, İranın indiki şəraitdə, yəni artıq böyük cəbhədə savaşdığı vəziyyətdə Azərbaycanla ikinci cəbhə açmaqda marağı olmaya bilər. Düzdür, həmin vaxt bəziləri İranın bunu dövlət olaraq məqsədli şəkildə həyata keçirdiyi ilə bağlı iddialar irəli sürdülər. Amma dərin düşüncələrə görə, İranın elə o vaxt da, indi də İranın Azərbaycanla ikinci cəbhə açmaqda marağı ola bilməz. Bu, sadəcə, ən azı hərbi-texniki və strateji cəhətdən İranın mənafelərinə uyğun gəlmir. Ona görə də hələ o zaman da dərin düşüncələr belə bir məsələ ortaya qoyurdu ki, bu, başqa üçüncü ölkələrin törətdiyi təxribat ola bilər, ya İranın daxilində ABŞ-nin və İsrailin proksi qüvvələri tərəfindən bir hərəkət ola bilər. Yaxud İran hakimiyyətinin daxilində İranın dövlət hakimiyyətinin əsas xətti ilə bağlı olmayan təxribatçı qüvvələrin də işi ola bilərdi. Məsələn, biz bilirik ki, Ermənistanın İran hakimiyyəti daxilində müəyyən qədər dəstəkçiləri var”.

**A.Quliyev qeyd edib ki, İran hakimiyyəti daxilindəki başqa ölkələrə bağlı qüvvələrin Azərbaycana qarşı təxribat törətdiyi istisna edilməməlidir:** “Beləliklə, baş vermiş hadisədən çıxardığımız iki böyük nəticə var. Biri budur ki, İranın dövlət olaraq hazırda bu hadisəni birbaşa törətməkdə marağı yəqin ki, ola bilməzdi. İkincisi isə bütün hallarda həmin dron Azərbaycana İranın ərazisindən atıldığına görə onun məsuliyyəti birbaşa İran dövlətinin üzərindədir. Ona görə də İran dövləti həmin hadisənin mahiyyətini və motivlərini sona qədər araşdırmalı və Azərbaycana inandırıcı izah verməlidir. Xarici işlər naziri Ceyhun Bayramovun o cür fikirlər səsləndirməsi belə qənaətə gəlməyə əsas verir ki, İran Azərbaycana müəyyən inandırıcı izahlar verib. İran-Azərbaycan münasibətləri hər zaman həssas olduğu qədər onun normal və sülh içində saxlanması da bir o qədər vacib olub və vacibdir. Bunu yəqin ki, İran tərəfi də başa düşür”.

❑ **Etibar SEYİDAĞA, Musavat.com**

MÜSAVAT
N 18 (8867) 13 may 2026

# İlin sonunadək MDB buraxıla bilər?

## Ekspertlərin fikrincə, qurumun ömrünə az qalıb, amma şimal qonşumuz...



**Müstəqil Dövlətlər Birliyi (MDB) 35-ci ilini yaşayır. Bu qurum Sovet Sosialist Respublikaları İttifaqının qalıqları üzərində, Rusiya, Belarus və Ukrayna dövlət başçılarının 1991-ci il dekabrın 8-i Belarusda imzaladığı sazişlə yaradılıb. Dekabrın 20-də Azərbaycan parlamenti ölkənin Müstəqil Dövlətlər Birliyinə qoşulmasını məqsədəuyğun saymayan qərar qəbul edib.**

Dekabrın 21-i Almatıda (Almatı-Qazaxıstan) Moldova, Azərbaycan, Ermənistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan 8 dekabr sazişini imzalayaraq MDB-yə qoşulublar.

1992-ci il oktyabrın 7-də Azərbaycan parlamenti ölkənin Müstəqil Dövlətlər Birliyinə qoşulmasını təsdiqləməyib.

1993-cü il yanvarın 22-də Minskdə (Belarus) MDB-nin nizamnaməsi qəbul olunub. Sənəd Ukrayna və Türkmənistanda ratifikasiya olunmayıb, həmin vaxtdan bu iki dövlət MDB-nin üzvləri yox, təsisçiləri və iştirakçıları sayılıb.

Sentyabrın 20-də Azərbaycan parlamenti ölkənin Müstəqil Dövlətlər Birliyinə qoşulması barədə qərar çıxarıb, sentyabrın 24-də məsələ həllini tapıb.

Dekabrın 9-da Gürcüstan da MDB-yə qoşulub.

2005-ci ildə Türkmənistan MDB-nin müşahidəçi üzvü statusu alıb.

Rusiyanın təcavüzünə məruz qalan Gürcüstan 2008-ci il avqustun 18-də MDB-dən çıxmaq barədə nota verib. Təşkilatın nizamnaməsinə uyğun olaraq bir il sonra Gürcüstanın MDB-dən ayrılması rəsmiləşib.

Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələri 1990-cı illərdən özünü müstəqil dövlət elan etmiş rejimlərin əlindədir. 2008-ci il avqustun 26-da Rusiya Abxaziya və Cənubi Osetiyanı "müstəqil dövlət" kimi tanıyıb. Hər iki bölgədə Rusiyanın hərbi bazaları var.

Rusiyanın təcavüzü ilə üzləşən Ukrayna 2014-cü ildən başlayaraq MDB-nin tədbirlərini boykot edib və qurumdan ayrılmaq istiqamətində rəsmi qərarlar çıxarıb, 2018-ci il mayın 19-da tam üzülüşüb.

2014-cü ildən Rusiya Ukraynada işğalçı müharibə aparır, həmin il Krım yarımadasını, 2022-ci ildə isə Donetsk, Luqansk, Zaporojye və Xerson vilayətlərini özünə birləşdirdiyini açıqlayıb.

Ukraynaya təcavüz dalğasında Moldova da MDB-dən ayrılmaq yolu tutub, 2026-cı il aprelin 6-da bu barədə rəsmi qərar verib. Üzülüşmə prosesi 2027-ci il aprelin 7-də başa çatacaq. Ermənistan da bu yolu tutmağa hazırlaşdığı şübhə doğurmur, sadəcə, indiki təzyiqlərə görə bu prosedura başlamır. 1990-cı ildə Moldovanın Dnestryanı bölgəsi ölkədən ayrıldığını elan edib. Bununla bağlı yaranan silahlı münaqişədə Rusiya qoşunları separatçı rejimin tərəfini tutub və o zamandan bəri ərazini nəzarətdə saxlayır.

Rusiya 35 yaşı tamam olacaq və heç bir siyasi təsir imkanlarını itirən qurumu niyə də nəzarətində saxlamaq istəsin? Özü belə bir buraxılma qərarı verə bilərmi? MDB-nin iqtisadi faydaları qalırmı?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, MDB Rusiyanın əlində əski sovet ölkələrini öz təsirində saxlamaq üçün bir alətdir: "Bu qondarma qurumun heç bir siyasi, iqtisadi təsir rıçaqları mövcud deyil. Rusiyanın dirijorluğu ilə MDB-nin işlək bir təsisat olduğunu göstərmək üçün təsis edilmiş bəzi yan qurumlar isə sadəcə formallıqdır. Sovetlər İttifaqı dağıldıqdan sonrakı 35 ildə vaxtilə bu ittifaqın tərkibində olmuş hər bir dövlət sözün həqiqi mənasında anladılar ki, onların 70 il birlikdə yaşadıqları Sovetlər İttifaqı adında bir təsisat, əslində Rusiya imperiyasının bir qədər fərqli forması olub. Bu ittifaq dağıldıqdan sonra həmin məkanda ayrı-ayrı respublikaların ərazisində milli zəmində baş qaldıran münaqişələr, Rusiya imperiyasını dağılmaq təhlükəsindən qorumaq üçün sovet dövründə əkilmiş milli münaqişə toxumları idi. Və deməli, Sovetlər İttifaqının mövcud olduğu dövrdə ortada heç bir sosialist, kommunist ideologiyası olmayıb. Bütün bunların əvəzində ortada yalnız Rusiyanın imperiya ambisiyası mövcud olubdur. Sovetlər ittifaqının dağılmasından keçən dövrdə yaradılmış qondarma MDB-dən ölkələrin bir-bir qopması da bu dediklərimizin sübutudur. Dövlətlər zamanla anladılar ki, Rusiya onları nədən MDB adlı bir qurumda bir arada saxlamaq istəyir. Bir sözlə, MDB "bəlkə Sovetlər İttifaqını bərpa etmək mümkün olar" kimi Rusiya imperiyasının arzusunu reallaşdırmaq üçün bic doğulmuş bir təsisatıdır. Onun tam dağılmasına az qalıb".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev** isə qeyd etdi ki, SSRİ dağılandan sonra Rusiya keçmiş respublikaları öz ətrafında saxlamaq üçün müxtəlif variantlar axtarırdı: "Əslində bu imperiyaların xüsusiyyətindən irəli gəlir. Dünyada belə nümunələr var. Məsələn, keçən əsrdə Böyük Britaniya keçmiş koloniyalarından ibarət Millətlər Birliyi yaratmışdı və bu təşkilat vasitəsilə yeni üsullarla əlaqələr və siyasi münasibətləri saxlamağa cəhd göstərirdilər. Müstəqil Dövlətlər Birliyi də məhz belə bir nümunəyə söykənərək yaranmışdı. Amma fərqi o idi ki, MDB-də dövlətlərin sayı az idi və ən əsası ora üzv olan dövlətlər demək olar ki, müxtəlif təhdid və təzyiqlərlə bu quruma üzv olmağa məcbur edilmişdi. O səbəbdən yarandığı gündən formal bir təşkilat olaraq qaldı və adında olan birlik ifadəsindən əsər-əlamət yox idi. Millətlər Birliyi dünyanın müxtəlif qitələrində olmuş Britaniya koloniyalarından formalaşmışdı. MDB isə bir coğrafiyada mövcud olmuş, bir-biriləri ilə quru sərhədləri olan, bir çox parametrlər üzrə xalqlarının bir-birilərini tanıdıqları dövlətlər tərəfindən yaranmışdı. Məhz o səbəbdən fəaliyyətsiz və əhəmiyyətsiz bir qurum bu və ya digər formada bu günə qədər gəlib çıxıb. Bu təşkilatda uzun illər öncə açıq şəkildə mərkəzdənqaçma meyilləri mövcud idi. Amma bir sıra vacib məsələlər, xüsusilə Rusiyanın təhdidləri, iqtisadi, hətta ehtiyac olarsa, hərbi təzyiqləri ehtimalları ölkələri çəkindirirdi. Gürcüstanın bu qurumdan çıxması, sonradan Ukraynanın və Moldovanın da analoji addımları atması, ümumiyyətlə, hazırda tam təsirsiz, fəaliyyətsiz olması bu formal qurumun tezliklə ləğv olunacağına işarə edir. Amma bu addım Rusiya tərəfindən atılmayacaq. Çünki Rusiya keçmiş respublikalara istənilən yol və vasitə ilə siyasi və iqtisadi təsir imkanları saxlamaq istəyir. Ola bilsin ki, məcbur qalıb daha az sayda dövlətin iştirakı ilə adı fərqli, amma mahiyyəti eyni olan yeni qurum yaratmağa da cəhd etsin. Bu cəhdlərin bir nəticəsinin olması böyük sual altındadır. Rusiya özü MDB-nin buraxılması ilə bağlı heç bir addım atmayacaq. Amma məcbur qaldığı təqdirdə az tərkibdə olsa belə fərqli adla və istiqamələrlə yeni bir qurum yaratmağa cəhd edə bilər".

❑ **Cavanşir ABBASLI,**
**Musavat.com**

# Rusiya "Zəngəzur dəhlizi"nə qarşı

## XİN-in departament direktorundan ilginc açıqlamalar

**Rusiya Cənubi Qafqazdakı mövqelərini əldə vermək istəmir. Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə dördüncü departamentinin direktoru Mixail Kaluqinin açıqlamaları da bunu təsdiqləyir.**




O bildirib ki, Rusiya Qafqaz dövləti hesab olunur və regiondakı proseslərlə sıx bağlıdır, buna görə də Cənubi Qafqaz onun üçün həyati əhəmiyyət daşıyır. "Bizim maraqlarımız ondan qaynaqlanır ki, Rusiya sadəcə qonşu deyil, özü də Qafqaz dövlətidir. Regionun bütün ölkələri ilə bizi çox sıx tarixi və mədəni bağlar birləşdirir. Beş respublikadan dördü ilə müttəfiqlik münasibətləri qurulub. Cənubi Qafqaz ölkələrinin hər biri üçün Rusiya əsas və ya əsas ticarət tərəfdaşlarından biridir. Regiondan bizim üçün əhəmiyyətli nəqliyyat marşrutları keçir. Dağ silsiləsinin o tayında proseslərin necə inkişaf etməsindən Şimali Qafqazdakı vəziyyət də böyük ölçüdə asılıdır. Bir sözlə, Cənubi Qafqaz bizim üçün həyati əhəmiyyət daşıyır", - diplomat deyib.

O əlavə edib ki, Moskvanın Cənubi Qafqazdakı maraqları sarsılmazdır və Qərb "gözəl sözlərə" baxmayaraq, Rusiyanı əvəz edə bilməyəcək: "Vurğulamaq istəyirəm ki, Qərb gözəl bəyanatlarına baxmayaraq, nə təhlükəsizlik sahəsində, nə də iqtisadiyyatda yaxın perspektivdə Cənubi Qafqaz üçün Rusiyanı əvəz edə bilməz və edə bilməyəcək. Bizim regiondakı maraqlarımız isə sarsılmazdır".

**Kaluqin deyib ki, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin işə salınması perspektivləri ABŞ ilə İran arasındakı münaqişə fonunda o qədər də ümidverici deyil**: "Bir sıra ekspertlər hesab edir ki, İran-ABŞ qarşıdurması fonunda "Tramp yolu"nun perspektivləri qeyri-müəyyəndir. Qeyd olunur ki, İranın öz şimal sərhədlərində ABŞ-nin mövcudluğunu mənfi qarşılaması ilə yanaşı, Mərkəzi Asiyadan Avropaya uzanan və "Tramp yolu"nun bir hissəsi olması nəzərdə tutulan marşrut üzərində Amerika nəzarəti Asiya tərəfdaşlarında da etimadsızlıq yarada bilər. Çin və Rusiya yükləri olmadan isə layihəyə yatırılan investisiyaların geri dönüşünü təmin etmək son dərəcə çətin olacaq".

**Kaluqinin sözlərinə görə, bu məsələdə nəzərə alınmalı olan bəzi amillər də var:** "Bunlara Rusiya sərhədçilərinin Ermənistan-İran sərhədində mövcudluğu, onun Azərbaycan dəmir yolu ilə problemsiz birləşdirilməsi üçün Rusiya standartlı dəmir yolu xəttinin çəkilməsi zərurəti, "Cənubi Qafqaz Dəmir Yolu"nun 2038-ci ilə qədər Ermənistan dəmir yolu şəbəkəsinin idarə olunması üzrə konsessiyası, həmçinin Ermənistan ərazisinin Avrasiya İqtisadi İttifaqının vahid gömrük məkanına daxil olması daxildir".

**Kaluqin vurğulayıb ki, ümumilikdə, bu layihə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Cənubi Ermənistandan keçən tranzit marşrutu kimi, birdən-birə yaranmayıb:** "Onun yaranmasından əvvəl Rusiya-Azərbaycan-Ermənistan formatında, daha dəqiq desək, baş nazir müavinlərinin həmsədrliyi ilə fəaliyyət göstərən üçtərəfli işçi qrup çərçivəsində iki illik gərgin iş aparılmışdı. Artıq 2023-cü ildə biz "Mehri marşrutu" nun işə salınmasına çox yaxın idik. Bu marşrut yalnız Ermənistanın cənubu vasitəsilə Naxçıvana tranziti təmin etməməli, həm də faktiki olaraq Ermənistan və Azərbaycan dəmir yollarını birləşdirməli idi. Hazırda Ermənistanın "Tramp yolu"na arxalanaraq nail olmağa çalışdığı məhz budur. Problem ondadır ki, Ermənistan-ABŞ təşəbbüsü "Mehri marşrutu"ndan fərqli olaraq Ermənistan və Azərbaycan dəmir yolu infrastrukturunun avtomatik şəkildə tam inteqrasiyasını nəzərdə tutmur. 2023-cü ildə İrəvanın üçtərəfli işçi qrupunun fəaliyyətini qəsdən dondurması bizim günahımız deyil".

❑ **"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 18 (8867) 13 may 2026

**ABŞ qırıcılarının İslam respublikasının gəmilərinə hücum etdiyi bir dövrdə İran həm də "daxili düşmənlərlə" mübarizə apardığını elan edib. Siyasi rejim zindanlarda çürütdüyü fəallardan bəzilərini tələsik edam etdirir, kimilərini isə "İsrail casusu" ittihamı ilə həbsə salır.**



# İranın Nobel Sülh mükafatlı Nərgizi

## Dünyada tanınan hüquq müdafiəçisi indi ölümlə üz-üzədir; həyatı zindanlarda keçən zəncanlı Məhəmmədi kimdir...

Ötən həftələrdə isə xəbər yayıldı ki, İranda həbsdə olan jurnalist, hüquq müdafiəçisi, Nobel Sülh mükafatı laureatı Nərgiz Məhəmmədinin səhhəti pisləşib və xəstəxanaya yerləşdirilib. Əslən azərbaycanlı, Zəncandan olan Nərgiz Məhəmmədi ikinci güneyli soydaşımızdır ki, Nobel Sülh mükafatı alıb. İlk dəfə isə bu mükafatı Şirin Ebadi alıb. Şirin Ebadiyə Nobel Sülh mükafatı 2003-cü ildə demokratiyanın inkişafı və insan haqlarının, xüsusilə də İranda qadın və uşaqların hüquqları uğrunda mübarizəyə görə verilib. O, Bakıda da olub. Nərgiz Məhəmmədi də onun rəhbərlik etdiyi insan haqları mərkəzində vitse-prezidentdir. İndi isə xəstəxanaya yerləşdirildiyi xəbərləri yayılan Məhəmmədi İran rejimi üçün "vətən xainidir".

Görünür, onun azad olunması İranın azərbaycanlı prezidentinin də iradəsindən kənardadır. Halbuki nobelçi Nərgizlə azərbaycanlılar və cəmi İran qürur duymalıdır. Axı bir qadının insan hüquqlarını müdafiə etməsi sağa-sola raket yağdıran dövlət üçün nə qədər təhlükəli ola bilər? Bu sualla çıxış edərək İranın Nərgizinin həyat hekayəsi ilə tanış olmuşuq...

**"Bir taleyin oyununda cütlənmiş zərik"...**

Nərgiz Məhəmmədi 1972-ci ildə anadan olub. İlk dəfə 1998-ci ildə həbsə düşən Məhəmmədi sonradan dəfələrlə həbs həyatı yaşamalı olub. 2016-cı ilin may ayında Məhəmmədi Tehranda "ölüm cəzasının ləğvi üçün kampaniya aparan insan haqları hərəkatı" yaratdığına və ona rəhbərlik etdiyinə görə 16 il həbs cəzasına məhkum edilib.

Nobel Mükafatını da həbsdə olarkən alıb. Mükafat ona "İranda qadınlara zülmə qarşı mübarizəsinə və hamı üçün insan hüquqlarını və azadlığını təşviq etmək üçün apardığı mübarizəyə görə" verilib. Nərgiz fizika sahəsi üzrə ali təhsil alıb və peşəkar mühəndis olub. O, tələbə qəzetində qadın hüquqlarını dəstəkləyən məqalələr yazıb və yaradılan "Maarifçi Tələbə Qrupu"nun iclasında həbs edilib.

O, həmçinin dağadırmanma idman növündə fəal olub. Məhəmmədi bir neçə islahatçı qəzetdə jurnalist kimi işləyib. "İslahatlar, Strategiya və Taktika" adlı siyasi esselər kitabını nəşr edib. 1999-cu ildə o, islahat tərəfdarı olan jurnalist Tağı Rəhmani ilə ailə həyatı qurub. Əkiz uşaqları dünyaya gəlib. Lakin rejimin qəddarlığı bu ailənin birgə yaşamağına imkan vermir. Çox keçmədən Rəhmani həbs olunub və 14 il cəza çəkdikdən sonra 2012-ci ildə Fransaya köçüb. İndi Nərgiz həbsdə, Tağı mühacirətdədir...

**Rejim də, Nərgiz də süni tənəffüs aparatında...**

Bu il mayın 5-də BMT-nin baş katibi Antonio Quterreş Nərgiz Məhəmmədinin səhhətinin ağırlaşması ilə bağlı xəbərlərdən narahatlığını bildirib. ABŞ-nin BMT-dəki səfiri Mayk Uolts da mayın 5-də X sosial şəbəkəsində bu barədə paylaşım edib. O, Məhəmmədinin həbsdə olduğu müddətdə "rejimin qadınlara və siyasi rəqiblərə qarşı zorakılığı barədə həqiqəti danışdığına görə" pis rəftara məruz qaldığını vurğulayıb. Amma İranda rejimin indi nə BMT, nə ABŞ dinləyən vaxtıdır. Nərgiz Zəncan şəhərindəki xəstəxanaya köçürülüb. Fondun məlumatına görə, o, iki dəfə huşunu itirib, ağır ürəktutması keçirib və vəziyyəti son dərəcə kritikdir.

Qardaşı Həmidrza Məhəmmədi mayın 2-də "AzadlıqRadiosu"nun fars xidmətinə açıqlamasında deyib ki, ailə üzvləri onu xəstəxananın reanimasiya şöbəsində görüblər. Onun sözlərinə görə, Məhəmmədinin vəziyyəti ağır olaraq qalır və o, süni tənəffüs aparatı vasitəsilə nəfəs alır. Nərgiz Məhəmmədi ötən ay infarkt keçirəndən sonra ağır vəziyyətdədir. Bunu onun ailəsi və tərəfdarları bildirir. Məhəmmədinin İranda yaşayan ailəsinə və vəkillərinə aprelin 11-də həbsxanada onunla ikinci dəfə üzbəüz görüşməsinə icazə verilib. Onun fondu açıqlamasında bildirir ki, görüş zamanı "ümumi durumunda pisləşmə açıq görünüb, fiziki durumu kritik qiymətləndirilib".

Xatırladaq ki, Məhəmmədi uzunmüddətli insan haqları fəaliyyətinə görə 2023-cü ildə Nobel Sülh Mükafatına layiq görülüb. O, dekabrda Məşhəddə həbs olunub, daha sonra Zəncan həbsxanasına köçürülüb, ailəsi ilə əlaqəsi məhdudlaşdırılıb.

**Süleymani, yoxsa Məhəmmədi?**

Ümumiyyətlə, 2022-ci ilin yanvarında Məhəmmədi "dövlət əleyhinə təbliğat" və Səudiyyə Ərəbistanına casusluq ittihamı ilə səkkiz il müddətinə azadlıqdan məhrum edilib. 2023-cü ilin avqustunda onun cəzası telefon və poçtla müsahibələr verdiyinə və həbsdə olarkən həbsxana zorakılığı ilə bağlı BMT-yə rəsmi müraciətlər hazırladığına görə əlavə bir il uzadılıb. 2023-cü ilin sentyabrında, İranda kütləvi etirazlara səbəb olan Məhsa Əmininin ölümünün ildönümündə Məhəmmədi "Nyu York Taymz" qəzetinə belə bir mesaj göndərməyi bacarıb: "Onlar bizi nə qədər çox bağlasalar, bir o qədər güclənəcəyik".

Kürdəsilli Məhsa Əmininin öldürülməsi İranda istər türk, istər fars olan bütün narazı elektoratı ayağa qaldırmışdı. O dövrdə Nərgiz "Qadın, həyat və azadlıq" başlığı ilə həbsdən məqalə yazmışdı. İranın sabiq xarici işlər naziri olmuş Hüseyn Abdullahian qeyd etmişdi ki, sülh mükafatı İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Qasım Süleymaniyə daha layiqdir. Nərgiz isə dünyada bu mükafatı alan 19-cu qadındır. Və azərbaycanlı mübariz qadın yaşadığı məhrumiyyətlərə görə illərdir ki, övladlarının üzünü görə bilmir. İndi keçirdiyi infarkt, ağciyərində yaranmış problem və kritik vəziyyəti azərbaycanlı nobelisti ölüm-qalım məsələsi ilə üzbəüz qoyub.

Sonuncu çağırış isə mayın 9-da Fransa, İspaniya və Kanada hökumətlərindən gəlib. Qərb dövlətləri İranı Məhəmmədini dərhal azadlığa buraxmağı tələb edib. Ümumdünya Səhiyyə Təşkilatının da oxşar bəyanatı var. Mayın 5-də onun vəkili Şirin Ərdəkan Nərgizin həyatına təhlükə olduğunu açıqlayıb. Di gəl, İran və ya SEPAH rejimi bir qadınla "mübarizə" aparmaqdadır. Halbuki ölkənin xirtdəyə qədər problemləri var ki, onları həll etmək lazımdır. Onu da deyək ki, İranda həbsdə olan qadın hüquqları müdafiəçiləri - Golrox İrayi, Zöhrə Sərv, Nəsrin Cavadi, Sepidə Qoliyan, Bəharə Hidayət və nəhayət, Nərgiz Məhəmmədi bir müddət əvvəl "Qadın, Həyat, Azadlıq" hərəkatına istinad edərək birgə bəyanatla çıxış ediblər. Onlar məktubda yazıb ki, "Dini istibdadın hökmranlığına son qoymaq üçün xalqın iradəsi üzə çıxacaq".

**Məhsadan Nərgizə qədər**

**Nərgizin mübarizəsinin əsas istiqamətləri isə bunlardır:**

*- Qadınlara qarşı sistemli ayrı-seçkiliyə qarşı çıxış;*

*- Məcburi hicab siyasətinə etiraz;*

*- Edam cəzasının ləğvi üçün kampaniyalar;*

*- Siyasi məhbusların və işgəncəyə məruz qalanların hüquqlarının müdafiəsi;*

*- Təkadamlıq kameraların və qeyri-insani həbs şəraitinin ifşası;*

O, xüsusilə Evin həbsxanasında baş verən zorakılıqlar və işgəncələr barədə ictimaiyyətə çatdırdığı məlumatlarla beynəlxalq aləmdə tanınıb. İran hakimiyyəti üçün Nərgiz Məhəmmədi təhlükəli fiqurdur, çünki o susmur. Həbsdə olsa belə, məktublar və bəyanatlarla rejimi ifşa edir. Bu səbəbdən 13 dəfə həbs olunub. Ümumilikdə 31 il həbs və 154 şallaq hökmü alıb.

Bildirək ki, İran Cinayət Məcəlləsinin 638-ci maddəsinə əsasən, ictimai yerlərdə başıaçıq gəzən qadınlar 10 gündən 2 ayadək həbs və ya cərimə ilə üzləşə bilərlər. Məcburi hicab qaydalarına əməl etməyənlərə qarşı yeni, daha sərt qadağaların tətbiqi, o cümlədən boyun, qol və topuqların örtülməsi tələbi də gündəmdədir. 2026-cı ilin mayında yayılan bəzi xəbərlərdə İran rəhbərliyinin etirazları yatırmaq və ya beynəlxalq təzyiqləri azaltmaq məqsədilə bəzi islahatlara getməyə cəhd etdiyi, qadınların başlarını açmasına qarşı daha yumşaq mövqe nümayiş etdirdiyi iddia edilir. Avropa İttifaqı (Aİ) İranda insan hüquqlarının, xüsusilə qadın hüquqlarının ciddi pozulması səbəbindən 2026-cı ilin mart ayında ələ və şəxslərə və qurumlara qarşı sanksiyalar tətbiq edib.

İran rejimi üçün bir qadın fəalın ölümü statistikadan biri olacaq. Əgər Nərgizin həyatı xilas olunmasa, bu, tarixə daha bir azərbaycanlı mübarizin qətli kimi düşəcək. İndi o şans var ki, bir nobelisti, bir ananı, bir azərbaycanlı adını xilas etsinlər...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026



# Subaylar üçün avtobus

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda bir çox avtobus marşrutlarına baxan "Bakubus" və dövlətin taksi xidməti olan "Bakı Taksi"ni metro ilə birləşdirdilər. Yəqin ki, bu təmərküzləşmə nəqliyyat sahəsində problemlərdən qurtulmaq üçündür, ancaq xırda hissələri bütövləşdirməklə işin düzələcəyi şübhəlidir. Çünki bu cür vahid rəhbərliyi biz sovetin vaxtında görmüşük. O zaman camaat iş-gücə getmək üçün saatlarla dayanacaqda qalırdı, avtobusun, trolleybusun qapısından sallaşıb gedirdik.**

Lakin birləşmə xalqın tələbidir, bizə birlik gərəkdir! Ona görə təklif edirəm yaxın vaxtlarda gəmiçilik də metropolitenə birləşdirilsin. O cümlədən təyyarəçilik. Hətta daha uzağa gedərək ticarət və yanğınsöndürmə xidmətlərimizin də metroya birləşdirilməsini arzu edərdim. Nəyə görə?

Baxın, bu gün Lökbatan tərəfdə anbar yandı. Nə qədər mal-pul ziyan oldu, hava korlandı. Halbuki əgər anbar fövqəladənin tabeliyində olsaydı, o da metroya birləşsəydi, yanğın olardımı? Olmazdı!

Sübutum da var. Təzəlikcə bütün metroda hərəkət dayandırıldı, hamını qovalayıb yerin üstünə çıxardılar. Sonra metronun müdiri izahat verdi, dedi ki, stansiyalar arasında elektrik xətti kontakt vermişdi, cupbulu yanğın təhlükəsi vardı, ona görə hərəkəti dayandırdıq.

Həqiqətən də, bu sığortalama sayəsində 2-3 nəfərin ürəyinin getməyindən başqa zərərçəkən olmadı, onları da sonra müdir gedib evlərində ziyarət etdi, hətta yaradılan narahatçılığa görə üzr istədi. Bunun özü bizim administrativ təcrübədə fantastik yenilik sayılmalıdır: vətəndaşdan narahatlığa görə üzr istənilməsini nəzərdə tuturam. Adətən vətəndaşlar üzr istəyirdilər - məmurlara narahatçılıq yaratdıqları üçün.

Uzun sözün qısası, ilkin açıqlamada anbarın "Kontakt" adlı şirkətə məxsus olması söylənildi. Buyur. Böyük ehtimal orada tok kontakt verib. Gərək şirkətin adını düz seçəsən. Məsələn, bir nəfər də məndən icazəsiz adıma bank açmışdı, bağlandı getdi işinin dalıyca. Halallıq almamısan axı! Elə pulu yemək olmaz.

Mənə bu cür yanğın əhvalatlarında həmişə bir detal da maraqlı gəlir: hadisə ərazisinə nazirin gəlməsi barədə xəbərin xalqa çatdırılması. Guya nazir gəlib orada nə edəcək? Şlanqı tutmursan, vedrədə bir damcı su daşımırsansa, camaata niyə mane olursan? Qəzetçilikdə operativlik haqqında bir ingilis yumoru var, deyir yaxşı reportyor yanğın yerinə yanğın başlamazdan 15 dəqiqə qabaq gəlməlidir. İndi mən hesab edirəm ki, yaxşı nazir də əslində hadisə yerinə öncə gəlməlidir. İş işdən keçəndən sonra nə mənası?

Burada işin işdən keçməsinin özü prosedur olaraq maraqlıdır həmçinin. Çünki araşdırsan həmin anbarın yanğın təhlükəsizliyi üzrə bütün normativ sənədləri hansısa üsullarla əldə etdiyi ortaya çıxar. Yəni, kağız-kuğuza baxsan hər şey top kimidir, lakin reallıqda tozanaq qopur. Bəs buna cavabdeh kimdir? Metronun rəisi - yuxarıdakı planım alınsa belə olacaq. Həm də yoldaş özünü əsl xalq adamı kimi nümayiş etdirib, niyə istifadəsiz qalsın? Harada anbar yansa, göndərək, gedib satıcı və alıcılardan üzr istəsin, hamının könlü xoş olsun.

Ümumiyyətlə, nəqliyyat sektorunda aparılan islahatlar bizi hərtərəfli sevindirir. Camaatın metroda doğduğunu artıq bilirdik, təzəlikcə bir avtobus sürücüsü isə əvvəlcə istədiyi xanıma avtobusun içində evlilik təklif etdi, sonra həmin maşınla gəlin apardılar. Çox müsbət emosiyalar yaşadıq. İndi hər bir subay avtobusa minəndə bunun evliliklə bitmək ehtimalını da nəzərə alır.

Yəqin ki, "zaqs"ı metroya birləşdirmək barədə təkliflərimin olduğunu yazmağıma ehtiyac qalmır.

# Moskvanın bir həftədə Azərbaycanla bağlı iki ciddi səhvi

## Rusiyanın dövlət kanalı "Dağlıq Qarabağ"ı ayrıca bir ərazi kimi göstərdikdən sonra "artsax parlamentinin spikerini" səfirlikdəki tədbirə dəvət etdi - Bakıdan sərt reaksiyalar

**Rusiya rəsmiləri diplomatiyada Bakı ilə "strateji tərəfdaşlıq və dostluq" barədə danışmağa üstünlük versələr də, son bir həftədə baş verənlər bu münasibətlərin səmimiliyini şübhə altına alır. Məlumdur ki, Rusiyanın dövlət kanalı olan "Birinci kanal"ın ən reytinqli proqramlarından olan "Vremya pokajet"in ("Zaman göstərəcək") efirində Cənubi Qafqazın xəritəsində "Dağlıq Qarabağ" Azərbaycanın tərkibində ayrıca bir ərazi kimi göstərilib. Bu, hansısa Telegram kanalında və ya özəl YouTube kanalında deyil, ölkənin əsas dövlət televiziya kanalı tərəfindən yayımlanması dərhal Azərbaycanda ciddi narazılıq doğurdu.**



Xarici İşlər Nazirliyi (XİN) Rusiya dövlət televiziyasında Azərbaycan xəritəsinin təhrif olunmasına sərt reaksiya verdi. XİN-in mətbuat katibi Ayxan Hacızadə jurnalistlərin suallarına cavabında bildirib ki, "Birinci kanal"ın verilişində Azərbaycan Respublikasının təhrif olunmuş xəritəsinin nümayiş etdirilməsi, xəritədə mövcud olmayan qondarma "Dağlıq Qarabağ" ərazisinin fərqli rənglə yer alması ciddi təxribat və qəbuledilməz siyasi manipulyasiyadır.

"Dövlətə məxsus media resurslarının məsuliyyətsiz və qərəzli yanaşması yolverilməzdir və qarşı tərəfdən bu məsələyə aydın izah verilməsi, eləcə də belə halların təkrarlanmaması üçün zəruri tədbirlərin görülməsi gözlənilir", - XİN sözçüsü vurğulayıb.

Amma bunun ardınca, mayın 9-da Rusiya səfirliyi tərəfindən İrəvanda təşkil olunan rəsmi qəbul ictimai və siyasi müzakirələrə yol açıb. Müzakirələrin əsas səbəbi tədbirdə vaxtilə qondarma "artsax parlamentinin spikeri" kimi tanınan Aşot Danielyanın iştirakı olub.

Müşahidəçilər qeyd edirlər ki, bu cür tədbirlərdə iştirakçıların dəvəti diplomatik protokol çərçivəsində həyata keçirilir və hər bir dəvət müəyyən siyasi mesaj kimi qəbul olunur. Bu baxımdan, Danielyanın hansı statusda Rusiya səfirliyinin tədbirinə qatılması suallar doğurub.

Rusiyanın ard-arda bu cür siyasi səhvini necə izah etmək olar?

Mövzu ilə bağlı fikirlərini "Yeni Müsavat"la bölüşən **Milli Məclisin deputatı Vüqar İskəndərov** bildirib ki, Azərbaycan Xarici İşlər Nazirliyinin bu təhrifə verdiyi sərt reaksiya və bunun "qəbuledilməz siyasi manipulyasiya" kimi qiymətləndirilməsi rəsmi Bakının prinsipial mövqeyini nümayiş etdirir: "Dövlətə məxsus media resurslarının bu cür məsuliyyətsizliyə yolverilməzdir və qarşı tərəfdən mütləq aydın izah tələb olunur. Lakin proseslər bununla bitmədi; mayın 9-da Rusiya səfirliyinin İrəvanda təşkil etdiyi rəsmi qəbulda qondarma qurumun keçmiş "spikeri" Aşot Danielyanın iştirakı siyasi mənzərəni daha da qəlizləşdirdi. Diplomatik protokol çərçivəsində hər bir dəvətin xüsusi bir siyasi mesaj olduğunu nəzərə alsaq, Danielyanın hansı statusla orada olması ciddi suallar doğurur. Heç kimə sirr deyil ki, Rusiya uzun illər Ermənistanın işğalçılıq siyasətinin əsas siyasi və hərbi dayağı olub. Moskvadan gələn hərbi və siyasi dəstək olmasaydı, erməni tərəfi bu qədər özbaşınalıq edə bilməzdi. Lakin indi zaman dəyişib; Azərbaycan Cənubi Qafqazda separatçılığa və ikili standartlara yer olmayan yeni bir reallıq yaradıb. Heç bir təbliğat və ya isteriya bu faktı dəyişə bilməz. Rusiya artıq bir yol ayrıcındadır: o, ya güclü və müstəqil Azərbaycanla normal, qarşılıqlı hörmətə əsaslanan münasibətlər quracaq, ya da köhnə ssenarilərə sadiq qalaraq rəsmi Bakının etibarını birdəfəlik itirmək riski ilə üzləşəcək. Bu siyasi səhvlər Moskvanın regiondakı yeni şərtləri hələ də tam qəbul etmək istəmədiyinin göstəricisidir. Vaxt gözləmir, Rusiya münasibətini və siyasətini aydınlaşdırmalıdır".

**Milli Məclisin digər təmsilçisi Elnarə Akimovanın da məsələyə baxışı kifayət qədər sərt olub:** "Rusiya illərdir Azərbaycanla münasibətlərdən danışanda eyni klişeləri təkrarlayır: "strateji tərəfdaşlıq", "qarşılıqlı hörmət", "müttəfiqlik ruhu". Amma son günlər baş verən iki hadisə göstərdi ki, Kremlin siyasi düşüncəsində Qarabağ məsələsi hələ də tam bağlanmayıb. Daha doğrusu, Moskva bölgədə dəyişən reallığı qəbul etmək istəmir.

Əvvəlcə Rusiyanın əsas dövlət televiziya kanalı olan "Birinci kanal"ın efirində nümayiş olunan qalmaqallı xəritə. "Vremya pokajet" proqramında Azərbaycanın ərazisi təhrif edildi və artıq tarixə çevrilmiş "Dağlıq Qarabağ" ayrıca məkan kimi təqdim olundu. Bu, adi efir səhvi deyil. Belə materiallar dövlət televiziyalarında təsadüfən yayımlanmır. Xüsusilə də söhbət Kremlin informasiya siyasətini daşıyan əsas kanaldan gedirsə.

Azərbaycan Xarici İşlər Nazirliyinin reaksiyası tam yerində idi. Çünki burada söhbət təkcə yanlış xəritədən getmir. Burada Azərbaycanın suverenliyinə qarşı siyasi hörmətsizlik var. Rusiya yaxşı bilir ki, "Dağlıq Qarabağ" adlı anlayış artıq hüquqi, siyasi və inzibati baxımdan mövcud deyil. 2023-cü ilin sentyabrından sonra bu məsələ birdəfəlik bağlanıb. Buna baxmayaraq, həmin ifadənin dövlət televiziyasında yenidən dövriyyəyə buraxılması açıq mesaj təsiri bağışlayır".

Deputat mayın 9-da Rusiyanın Ermənistandakı səfirliyinin təşkil etdiyi rəsmi tədbirdə keçmiş separatçı rejimin nümayəndələrindən biri - Aşot Danielyan da iştirakını heç nə təsadüfi hesab etmir: "Belə tədbirlərə kiminsə dəvət olunması, sadəcə, protokol məsələsi yox, siyasi siqnaldır. Moskva bunun doğuracağı reaksiyanı əvvəlcədən bilməmiş deyildi. Əslində bu iki hadisə bir-birindən ayrı deyil. Onlar Kremlin bölgəyə baxışını ortaya qoyur. Rusiya uzun illər Qarabağ münaqişəsindən regional təsir aləti kimi istifadə etdi. Münaqişə nə tam həll olunmalı idi, nə də tam bitməli. Çünki gərginlik Moskvanın bölgədə qalması üçün vasitə idi. Azərbaycan isə 44 günlük müharibə və sonrakı antiterror tədbirləri ilə bu mexanizmi dağıtdı. Kreml üçün əsas problem də məhz budur".

**Deputat dedi ki, Moskva Cənubi Qafqazda əvvəlki dominant mövqeyini itirir:** "Ermənistan belə artıq Rusiyanın dediyi xətt üzrə hərəkət etmir. Paşinyan hakimiyyəti açıq şəkildə Qərbə inteqrasiyaya çalışır. Rusiya isə həm Ukrayna bataqlığında ilişib qalıb, həm də postsovet məkanında nüfuz itkisi yaşayır. Belə vəziyyətdə Kreml köhnə metodlara qayıdır - siyasi mesajlar, simvolik təxribatlar, "yarımcanlı münaqişə" görüntüsü yaratmaq cəhdləri. Amma bir mühüm detal var: Azərbaycan artıq əvvəlki Azərbaycan deyil.

Bakı bu gün regionun əsas siyasi və iqtisadi güclərindən biridir. Azərbaycanın yaratdığı yeni geosiyasi reallıq təkcə hərbi qələbə deyil, həm də siyasi iradənin nümayişidir. Separatizm ləğv olunub, suverenlik bərpa edilib və bölgədə yeni oyun qaydaları formalaşıb.

Moskva isə görünür, hələ də bu həqiqətlə daxildə barışa bilmir. Ona görə də gah xəritələrlə oynayır, gah da separatçı keçmişin simalarını diplomatik tədbirlərə çıxarır. Lakin bu addımlar Rusiyanın gücünü yox, əksinə, zəifləyən təsir imkanlarını göstərir. Çünki həqiqətən güclü dövlət keçmişin kölgəsinə sığınmaz. Güclü dövlət reallığı qəbul edər və münasibətləri hörmət üzərində qurar. Əgər Kreml Azərbaycanla doğrudan da strateji münasibətlər istəyirsə, ilk növbədə siyasi manipulyasiyalardan əl çəkməlidir. Qarabağ mövzusu bitib. Bu məsələ üzərindən mesaj verməyə çalışanlar isə sadəcə, zamanın gerisində qaldıqlarını nümayiş etdirirlər".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# "Bir güllələik canı olan" EUMA - Prezidentin xəbərdarlığının kodları

**Avropa İttifaqı Şurasının aprelin 21-də Ermənistana "Aİ-nin müdafiə sahəsində ümumi təhlükəsizlik siyasəti çərçivəsində tərəfdaşlıq missiyası" (EUMA) göndərilməsi barədə qərara Azərbaycan Prezidenti İlham Əliyev Şükürbəylidə münasibət bildirib. "Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər.**

## Avropa İttifaqının Ermənistana yeni missiya göndərmək qərarı Qərbin regionda destabilizasiya niyyəti kimi izah edilir; Azərbaycan Prezidentinin sərt mesajının pərdəarxası, ekspert rəyləri...



Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə...", - deyə Prezident bildirib.

"Yeni Müsavat" qeyd edir ki, Avropa İttifaqının Ermənistandakı missiyası Aİ Şurasının 2023-cü il 20 fevral tarixli qərarı ilə yaradılıb və fəaliyyətə başlayıb. 30 yanvar 2025-ci ildə Aİ Şurası missiyanın mandatını 2027-ci il fevralın 19-na qədər uzatmaq barədə qərar qəbul edib. Aprelin 21-də isə Aİ ölkələrinin səfirləri Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərar qəbul ediblər. Rəsmi Bakı dəfələrlə vurğulayıb ki, Avropa İttifaqının Ermənistandakı missiyası neytral vasitəçi olmaq əvəzinə, regionda geosiyasi təsir alətinə çevrilib.

Avropa İttifaqının Ermənistandakı mülki missiyası sadəcə bir müşahidəçi heyəti deyil, əslində Qərbin Cənubi Qafqazda destabilizasiya və geosiyasi manipulyasiya üçün yaratdığı alətdir. Rəsmi bəyanatlarda bu missiyanın məqsədinin "sərhəd insidentlərinin qarşısını almaq" olduğu iddia edilsə də, reallıq tam fərqlidir: missiya Ermənistanın siyasi və hərbi maraqlarını dəstəkləmək, Azərbaycana qarşı təzyiq mexanizmi yaratmaq, Rusiya, Türkiyə və İran əleyhinə kəşfiyyat fəaliyyətləri aparmaq üçün istifadə olunur. EUMA öz fəaliyyəti boyunca sərhəd insidentlərinin qarşısını almaq bir yana, əksinə, bölgədəki gərginliyi artıran və sülh prosesini sabotaj edən struktur kimi çıxış edib.

Bu missiya əvvəlcə Ermənistanın şərq və cənub-qərb sərhədlərində fəaliyyət göstərmək üçün nəzərdə tutulmuşdu, lakin "müşahidəçilər" dəfələrlə Azərbaycanla sərhəddən xeyli uzaqda, hətta Rusiya hərbi bazası yerləşən Gümrüdə və Ermənistan-Türkiyə sərhədi boyunca peyda olublar. Bu, Avropa İttifaqının Ermənistan ərazisində apardığı casusluq fəaliyyətlərinin açıq göstəricisidir.

Prezidentin bu xəbərdarlığının arxasında nələr dayanır?

**Deputat Elşad Musayevin** "Yeni Müsavat"a bildirdiyinə görə, Aİ regionda bu hərəkətləri ilə sülhə töhfə vermir, əksinə, gərginliyi artırır. Onun fikrincə, bu missiyanın yerləşməsində məqsədlərdən biri Rusiyanın olduğu Ermənistanda Qərbin təsirini gücləndirmək olsa da, bunun özü də regiona əlavə gərginlik qazandırır. Deputat hesab edir ki, Aİ Azərbaycanla Ermənistan arasında əldə olunan sülhün pozulmasında maraqlı olmamalıdır: "Çünki onun bölgədəki rəqibi Rusiya bu vəziyyətdən istifadə etməyə çalışacaq. Bu baxımdan, cənab prezidentin sərt xəbərdarlığı yerindədir. Dövlət başçısı demək istəyir ki, hər hansı təxribat olacaqsa, Azərbaycanın cavabı da ağır olacaq. Eyni zamanda prezident açıq surətdə bəyan edir ki, bu missiyanın işi saxtakarlıqdır. Çünki bölgədə hərbi vəziyyət yoxdur. Əgər eskalasiya baş vermirsə, avropalılar nəyi müşahidə edirlər? Ona görə də Qərbin Rusiya ilə bağlı hansı planları varsa, bunu Azərbaycan üzərindən və ya bölgədə sülhü pozan addımlar atmaqla həyata keçirməməlidirlər".

**E.Musayevin sözlərinə görə, Aİ bu addımları ilə Azərbaycanı narazı salır və əməkdaşlığa xələl gətirir:** "Ermənistan işğala məruz qalmayıb, ərazisinə bir güllə də düşməyib. Onda sərhədə bu qüvvələr niyə göndərilir? Sanki Ermənistana təhdid var və sıxışdırılır. Halbuki Azərbaycandan Ermənistana neft məhsulları, taxıl, gübrə gedir. Ona görə də Qərbin yaratdığı saxta mənzərə beynəlxalq rəy formalaşdırmağa hesablanıb".

**Hərbi ekspert Ramil Məmmədli belə güman edir ki, bu addımlarla Rusiyanın Ermənistandakı hərbi varlığına son qoyulacağı gözlənilir:** "Amma buna jandarma qüvvələri göndərməklə nail olmaq çətin məsələdir. Təbii ki, Ermənistan özü qərar verməlidir. İndi özünə yeni təhlükəsizlik təminatı axtaran bir ölkənin üzünü Avropa Birliyinə çevirməsi riyakarlıqdır. Rusiya da ermənilərin bu mövqeyinə qəzəblidir. Çünki onun sərhədlərini qoruyan rus hərbçisi olub, tarixi torpaqlarımızda erməni dövləti yaradılıb, işğalda ermənilərə dəstək verib, indi üzünə ağ olurlar. Bu baxımdan, Avropa İttifaqının missiya göndərməsi, erməni ordusuna 30 milyon avro nəzərdə tutulması görüntü xarakteri daşıyır. Ermənistanın gülməşəkərə çevrildiyi, işğalçının indi əzizləndiyi Qərbin ikiüzlü siyasətinin nəticəsidir. Azərbaycandan Ermənistana heç bir təhdid yoxdur və sərhəddə sabitlikdir. Hətta quru yolla vətəndaş cəmiyyətinin üzvləri səfərlər edir, danışıqlar aparır".

**Hərbi ekspertin fikrincə, Aİ missiyasına yekun sülh sənədindən sonra da son qoyulacağını gözləmir:** "Qərb və Ermənistan bəhanə edəcək ki, Rusiya təhlükəsi var. Üstəlik, Gümrü bazası göstəriləcək. Baxmayaraq ki, Azərbaycanla sərhəddə erməni hərbçilərdir. Ancaq yenə də avropalılar bir müddət fəaliyyət göstərəcək. Sadəcə, bu cür destruktiv qərarlar və addımlar sülhə xidmət etmir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**




# Erməni lobbisinin pullu ruporu

## Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiya öz obyektivliyini çoxdan itirib

**ABŞ-nin Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (USCIRF) 2026-cı il illik hesabatında Azərbaycanı "erməni irsinin məhv edilməsi"nə və hərbi əsirlərə qarşı "qəddar rəftara" görə bir daha sərt şəkildə qınayıb. Komissiya Azərbaycanı Xüsusi Nəzarət Siyahısında saxlamağı, hədəflənmiş sanksiyalar tətbiq etməyi və hərbi yardımı məhdudlaşdırmağı tövsiyə edib.**

Ayna.az bununla bağlı məqaləsində yazır: "Məntiqi bir sual yaranır: bu Amerika strukturu bu qədər birtərəfli və siyasiləşdirilmiş qərarları nəyin əsasında qəbul edir? Cavab sadədir: erməni lobbisi ilə sıx əməkdaşlıq. İllərdir ki, USCIRF Ermənistan-Azərbaycan münaqişəsində açıq-aşkar qərəz nümayiş etdirir. ABŞ-nin ən aqressiv və təsirli lobbilərindən biri olan Amerika Erməni Milli Komissiyası (ANCA) müntəzəm olaraq komissiya ilə əməkdaşlıq edir. Azərbaycanın "cəzalandırılması" lazım olduqda, ANCA və digər erməni təşkilatları dərhal səfərbər olur, "ifadələr" təqdim edir, dinləmələr təşkil edir və komissiya üzvlərinə təzyiq göstərir.

Qədim kilsələrlə bağlı vəziyyət xüsusilə kinayəli görünür. Vatikan Qarabağdakı qədim xristian abidələrinin əksəriyyətinin Erməni Apostol Kilsəsinə deyil, Qafqaz Albaniyasına məxsus olduğunu dəfələrlə təsdiqləsə də, USCIRF onları "erməni dini irsi" adlandırmağa davam edir. Əlbəttə ki, "Azərbaycan agenti" olmayan Vatikan bunu bir neçə dəfə açıq şəkildə vurğulayıb. Lakin USCIRF üçün Müqəddəs Taxt-Tacın fikrinin heç bir mənası yoxdur.

Komissiya niyə tarixi faktları və Vatikanın mövqeyini görməzdən gəlir? Çünki bu, onlar üçün əlverişlidir. Çünki erməni lobbisi illərdir onlarla fəal şəkildə işləyir. Çünki bu halda "dini azadlıq uğrunda mübarizə" sadəcə olaraq erməni siyasi maraqlarını irəli sürmək üçün əlverişli bir örtükdür.

Qeyd etmək lazımdır ki, Prezident Donald Tramp əvvəllər bu cür strukturları fəal şəkildə tənqid etmiş və maliyyələşdirməni azaltmağa çalışmışdı. O, qlobalistlərin və "dərin dövlətin" hökumət maliyyələşdirmə alətləri ilə fəaliyyət göstərən bir çox QHT-ləri və komissiyaları adlandırmışdı. "Freedom House", Demokratiyaya Dəstək Milli Fondu və bir sıra digər təşkilatlar artıq Tramp administrasiyasının yeni yanaşmasının əsas zərbəsini hiss ediblər.

Amma nədənsə, USCIRF hələ də adi qaydada fəaliyyət göstərir və qərəzli, siyasiləşdirilmiş hesabatlar hazırlamağa davam edir. Görünür, Trampın sadəcə vaxtı yoxdur və ya bu əməliyyatı dayandırmağı prioritet hesab etmir.

USCIRF çoxdan dini azadlığı müdafiə edən bir qurumdan erməni lobbisini narazı salan ölkələrə təzyiq göstərmək üçün bir vasitəyə çevrilib. Lazım gəldikdə, onlar işğal zamanı yüzlərlə Azərbaycan məscidi və abidəsinin dağıdılmasına "göz yumurlar". Lazım gəldikdə isə birdən-birə Vatikanın mövqeyini belə görməzdən gələrək "erməni irsinin" qızğın müdafiəçilərinə çevrilirlər.

Bu, dini azadlığın müdafiəsi deyil. Bu, erməni diasporu tərəfindən maliyyələşdirilən və gözəl "insan hüquqları" adı altında qablaşdırılmış klassik lobbiçilik siyasətidir.

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026



# Çin dilinə Azərbaycanda tələbat niyə artıb?

## Mütəxəssislər hesab edir ki, yaxın illərdə Çin dili dünya üzrə ən çox öyrənilən xarici dillərdən birinə çevriləcək

**Azərbaycanda Çin dilinə maraq sürətlə artır və bu dil tədricən əmək bazarında ən tələb olunan bacarıqlardan birinə çevrilir. Artıq bu dil ekzotik hesab olunmur, əksinə, real karyera imkanları açan vacib üstünlük kimi qiymətləndirilir.**

Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov Minval.az-a deyib ki, ölkədə Çin dilinə maraq son illərdə ciddi şəkildə artıb. Hazırda Azərbaycan Dillər Universitetində bu dili iki fakültədə - regionşünaslıq (çinşünaslıq istiqaməti) və tərcümə fakültəsində 150-dən çox tələbə öyrənir. Bundan əlavə, Konfutsi İnstitutunun kurslarında hər il azı 250 nəfər təhsil alır.

Professor bildirib ki, institut fəaliyyət göstərdiyi 10 il ərzində minlərlə dinləyici hazırlayıb. Çin dili tədrisi artıq yalnız ali məktəblərlə məhdudlaşmır - regionlarda məktəblərdə, o cümlədən Biləsuvar rayonunda yerləşən Mübariz İbrahimov adına məktəb-liseydə də filial açılıb. Eyni zamanda Bakıdakı Heydər Əliyev adına Gənclər Evində və müxtəlif ali təhsil müəssisələrində Çin dili tədris olunur.

Bununla yanaşı, ölkədə Çin dili müəllimlərinin çatışmazlığı da hiss olunur. Bu problemin həlli üçün Elm və Təhsil Nazirliyi tərəfindən yeni layihələrin həyata keçirilməsi planlaşdırılır. Layihə çərçivəsində orta məktəblər üçün Çin dili müəllimlərinin hazırlanması nəzərdə tutulur.

Rafiq Abbasov qeyd edib ki, hazırda Azərbaycanda 300-dən çox Çin şirkəti fəaliyyət göstərir və bu şirkətlər Çin dilini bilən mütəxəssislərə böyük maraq göstərir. Xüsusilə tərcüməçilər, texniki mütəxəssislər və müxtəlif sahələr üzrə biliklərə malik kadrlar tələb olunur.

O, həmçinin vurğulayıb ki, Çin dili bilən tələbələr üçün Çində təhsil almaq imkanları da genişlənir. Müxtəlif proqramlar çərçivəsində tələbələr bir illik təhsil, yay düşərgələri və təqaüd imkanlarından yararlana bilirlər. HSK imtahanı isə bu sahədə əsas beynəlxalq sertifikat kimi çıxış edir və Azərbaycanda yalnız Konfutsi İnstitutunda keçirilir. Mütəxəssisin fikrincə, ingilis və rus dilləri hələ də üstün mövqedə olsa da, gələcək perspektivlər baxımından Çin dili getdikcə daha çox gəncin diqqətini cəlb edir. Bu isə Azərbaycanla Çin arasında siyasi, iqtisadi və mədəni əlaqələrin daha da genişlənəcəyindən xəbər verir.

Azərbaycanda Çin dilinə marağın son illərdə sürətlə artmasının əsas səbəbləri nələrdir?

Qeyd edək ki, ümumiyyətlə, bu gün dünyada Çin dilinə maraq sürətlə artır. Artıq bir çox ölkələrdə Çin dili gələcəyin perspektivli xarici dillərindən biri hesab olunur. Xüsusilə Çin iqtisadiyyatının sürətli inkişafı, texnologiya sahəsində əldə etdiyi uğurlar və beynəlxalq ticarətdə mövqeyinin güclənməsi bu dilə marağı daha da artırıb. Hazırda dünyanın müxtəlif ölkələrində məktəblərdə, universitetlərdə və xüsusi tədris mərkəzlərində Çin dili tədris olunur. Bir sıra ali təhsil müəssisələrində çinşünaslıq ixtisasları yaradılıb, tələbələr üçün xüsusi proqramlar və təqaüd imkanları təqdim edilir. Eyni zamanda beynəlxalq şirkətlərdə və biznes sahəsində Çin dili bilən kadrlara ehtiyacın artması da gənclərin bu dilə marağını artıran əsas amillərdən biridir.

Mütəxəssislər hesab edir ki, yaxın illərdə Çin dili dünya üzrə daha geniş yayılan və ən çox öyrənilən xarici dillərdən birinə çevriləcək.

Azərbaycanda isə bu dilə marağın artması səbəblərinə gəldikdə, **təhsil mütəxəssisi Elçin Əfəndi** "Yeni Müsavat"a deyib ki, Prezident İlham Əliyevin ötən il Çinə səfəri zamanı müxtəlif istiqamətlər üzrə mühüm razılaşmalar əldə olundu: "Təbii ki, Çinlə istər iqtisadi, istər siyasi, sosial, texnoloji və digər sahələrdə əlaqələrin sürətlə inkişaf etməsi artıq bir sıra məsələlərin həlli istiqamətində Çin dilli kadrlara olan ehtiyacı zərurətə çevirir. Belə olan halda isə təbii ki, ölkəmizdə Çin dili bilən mütəxəssislərin hazırlanması vacib məsələlərdən birinə çevrilir. Bu baxımdan Çin dilinin tədrisinə daha ciddi önəm verilməlidir. Məlum olduğu kimi, hazırda dünyanın əsas iqtisadi güc mərkəzlərindən və ən qabaqcıl dövlətlərindən biri məhz Çin Xalq Respublikasıdır. Çin iqtisadiyyatı hər gün daha da inkişaf edir, texnologiya sahəsində böyük nailiyyətlər əldə olunur, yeni texnoloji avadanlıqlar və innovativ vasitələr dünya bazarında aparıcı mövqe tutur. Bütün bu amilləri nəzərə aldıqda düşünürəm ki, yaxın gələcəkdə ölkəmizdə bir sıra təhsil müəssisələrində Çin dilinin tədrisi daha geniş şəkildə tətbiq olunacaq və bu istiqamətdə yeni layihələr həyata keçiriləcək. Təbii ki, burada Çin dilinin ingilis dili ilə rəqabət aparması məsələsinə gəldikdə hesab edirəm ki, ona ingilis dili səviyyəsində maraq olacaq. Çünki ingilis dili artıq beynəlxalq ünsiyyət dili kimi formalaşıb. Amma düşünürəm ki, Çin dili gələcəkdə rus dili səviyyəsində müəyyən maraq qazana və geniş yayıla bilər. Ümumilikdə isə fikrimcə, qarşıdakı 10-15 il ərzində Çin dili Azərbaycanda ən populyar xarici dillərdən birinə çevrilə bilər".

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**

# Ölkədə distant təhsil modelinin tətbiqi genişlənir

## Ekspert deyir ki, şagirdlərin dərsi izləyib-izləmədiyini müəyyən edən proqram təminatları olmalıdır

**Bu ildən etibarən Azərbaycan distant təhsil modelinin hazırlanması üzərində işləyir. Bu barədə Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev bildirib. Onun sözlərinə görə, altı kiçik məktəb artıq şagirdlərin təhsillərini doğma şəhərlərində davam etdirdiyi, müəllimlərin isə dərslərə uzaqdan qoşulduğu modeldən istifadə edir. "Bu halda şagirdlər öz evlərində qalır, müəllimlər isə dərsləri başqa məktəbdə onlayn keçirirlər. Belə əhəmiyyətli dəyişikliklər təbii ki, vaxt aparır. Hazırda ilkin mərhələdəyik, amma prosesin müsbət istiqamətdə irəlilədiyini görə bilərik. Yay aylarında şagird sayının yenidən hesablanması aparılacaq və bundan sonra bu istiqamətdə işlər davam etdiriləcək", - deyə nazir qeyd edib.**



Emin Əmrullayev tərəfindən səsləndirilən bu açıqlama Azərbaycanın təhsil sistemində mühüm transformasiyanın başlandığını göstərir. Distant təhsil modelinin tətbiqi xüsusilə kiçik və ucqar kənd məktəbləri üçün real çıxış yolu kimi görünür. Bu yanaşmanın əsas üstünlüyü ondan ibarətdir ki, şagirdlər doğma mühitlərini tərk etmədən keyfiyyətli təhsilə çıxış əldə edirlər. Müəllim çatışmazlığı problemi də qismən aradan qalxır, çünki bir müəllim eyni anda müxtəlif regionlardakı şagirdlərə dərs keçə bilir. Bu, həm resursların daha səmərəli bölüşdürülməsi, həm də təhsildə bərabər imkanların yaradılması baxımından əhəmiyyətlidir.

Lakin proses problemsiz deyil. İnternet infrastrukturunun yetərsizliyi, texniki avadanlıqların çatışmazlığı və rəqəmsal bacarıqların zəifliyi bu modelin qarşısında duran əsas maneələrdəndir. Bu səbəbdən də dəyişikliklərin mərhələli şəkildə tətbiqi zəruri hesab olunur.

Bununla yanaşı, prosesin çətin tərəfləri də var. İnternet infrastrukturu, texniki təminat, müəllimlərin və şagirdlərin rəqəmsal bacarıqları kimi məsələlər hələ də əsas çağırışlar olaraq qalır. Nazirin də qeyd etdiyi kimi, bu dəyişikliklərin mərhələli şəkildə həyata keçirilməsi zəruridir.

Ümumilikdə, ilkin nəticələr müsbət olsa da, modelin genişmiqyaslı tətbiqi üçün ciddi hazırlıq və davamlı investisiyalar tələb olunacaq. Bu təşəbbüs uğurla reallaşarsa, Azərbaycan təhsilində regionlararası fərqlərin azalmasına mühüm töhfə verə bilər.

**Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov mövzu ilə bağlı Musavat.com-a fikrini bölüşüb**: "Elm və təhsil naziri Emin Əmrullayevin toxunduğu məsələ əslində müasir dünyada "hibrid təhsil" və ya "sinxron distant təhsil" kimi tanınan modelin yerli ehtiyaclara uyğunlaşdırılmasıdır. Xüsusilə ucqar kəndlərdə müəllim çatışmazlığı və azkomplektli məktəblər probleminin həlli baxımından bunu mütərəqqi addım hesab edirəm.

Bu modelin uğurlu olması üçün isə bir neçə kritik məqam mütləq diqqətdə saxlanılmalıdır. İlk növbədə texnoloji bərabərsizliyin aradan qaldırılması vacibdir. Distant təhsilin ən zəif tərəfi internet sürəti, texniki təminat və rəqəmsal alətlərə çıxış imkanlarıdır. Modelin effektivliyi şagirdin evindəki internetdən deyil, məktəbdə qurulmuş yüksək sürətli şəbəkədən asılı olmalıdır. Hər bir kiçik məktəb interaktiv lövhə, yüksək keyfiyyətli kamera və səs sistemi ilə təmin edilməlidir ki, şagird özünü ekran qarşısında deyil, daha çox real sinif mühitində hiss edə bilsin. Çünki bəzən ekran və kamera faktoru uşaqlarda psixoloji maneələr yarada bilir.

İkinci vacib məsələ metodoloji transformasiyadır. Ən böyük səhv ənənəvi dərsi olduğu kimi kameraya köçürmək olar. Distant təhsil üçün müəllimlər xüsusi təlimlər keçməlidir. Müəllim uzaqdan şagirdlərin diqqətini necə saxlayacağını bilməlidir. İnteraktivliyin təmin olunması burada müəllimdən xüsusi bacarıq tələb edir".

**Digər mühüm məqama toxunan fəlsəfə doktoru qeyd edib ki, burada dərslərin monitorinqi və qiymətləndirmə alətlərindən danışıb**: "Şagirdlərin dərsi izləyib-izləmədiyini müəyyən edən proqram təminatları tətbiq olunmalıdır. Əgər uşaqlar dərsi məsafədən izləyirlərsə, sinifdə mütləq bir fasilitator və ya köməkçi müəllim olmalıdır. Bu şəxs şagirdlərə nəzarət etməli, texniki problemlərə müdaxilə etməli və anlaşılmayan məqamları yerində izah etməlidir. Təhsil yalnız bilik ötürmək deyil, həm də sosiallaşma prosesidir. Şagirdlərin tamamilə ekrana qapanması onların ünsiyyət bacarıqlarını zəiflədə bilər. Buna görə də müəyyən dərslərin canlı keçirilməsi vacibdir. Fiziki tərbiyə, təsviri incəsənət, əmək və digər praktik dərslərin ənənəvi formada keçirilməsi faydalı ola bilər".

**İlqar Orucov qeyd edib ki, distant dərs keçən müəllimlərin müəyyən vaxtlarda şagirdlərlə canlı görüşlərinin təşkili çox önəmlidir**: "Müəllim və şagird bir-birini real mühitdə görərsə, bu həm sosiallaşmaya, həm də psixoloji risklərin azalmasına müsbət təsir göstərə bilər. Distant təhsildə ən böyük suallardan biri qiymətləndirmə ilə bağlıdır. Təkcə dərslərin monitorinqi deyil, qiymətləndirmə alətlərinin də düzgün qurulması xüsusi əhəmiyyət daşıyır. Şagird biliyinin obyektiv ölçülməsi üçün onlayn imtahan sistemləri və ya mütəmadi mərkəzləşdirilmiş fiziki monitorinqlər keçirilməlidir. Ümumilikdə bu modeli təhsilin əlçatanlığının təmin olunması baxımından yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu, təhsildə bərabər imkanlar yaradacaq ən real vasitələrdən biridir. Əgər proses yalnız "Zoom dərsi" səviyyəsində qalmayıb ciddi infrastrukturla dəstəklənsə, ucqar dağ kəndlərində yaşayan şagirdlər də paytaxtdakı ən yaxşı müəllimlərdən dərs almaq imkanı əldə edə və rəqabətə davamlı şəkildə yetişə bilərlər.

Əslində məqsəd də bütün ölkə üzrə təhsil alanlar üçün bərabər imkanlar yaratmaq, keyfiyyətli təhsili əlçatan etmək və müasir alətlər vasitəsilə biliklərin şagirdlərə daha effektiv şəkildə ötürülməsini təmin etməkdir".

❑ **Afaq MİRAYİQ,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

**Ermənistan və Azərbaycan arasında delimitasiya prosesinin şimaldan cənuba doğru davam etdirilməsi barədə razılıq mövcuddur. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan jurnalistlərlə keçirdiyi brifinqdə bildirib.**

# Anklavlar problemi - sülh sazişindən əvvəl, ya sonra?

## Ermənistan problemi bu cür "həll" etmək istəyir, Bakı isə ərazi mübadiləsi variantını qəbul etməyə bilər




Paşinyan qeyd edib ki, Ermənistan və Azərbaycan arasında delimitasiya prosesi üçün hüquqi baza artıq formalaşıb.

Onun sözlərinə görə, 2024-cü ilin avqustunda imzalanmış və oktyabrda ratifikasiya edilmiş delimitasiya komissiyalarının birgə fəaliyyəti haqqında əsasnaməyə uyğun olaraq, Almata Bəyannaməsi iki ölkə arasında delimitasiyanın əsas prinsipi kimi qəbul edilib. "Bu o deməkdir ki, Ermənistan və Azərbaycan Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasındakı mövcud sərhədin iki ölkə arasında dövlət sərhədi kimi yenidən rəsmiləşdirilməsi ilə razılaşıblar", - deyə baş nazir bildirib. Baş nazir əlavə edib ki, delimitasiya prosesində əsasnamədə nəzərdə tutulan qarşılıqlı məqbul həllər tapıla bilər. Paşinyan həmçinin bildirib ki, prosesin davam etdirilməsi barədə razılaşma artıq dərc olunub. "Bizim artıq dərc edilmiş razılaşmamız var ki, delimitasiya şimaldan cənuba doğru aparılacaq. Aydındır ki, delimitasiyanın artıq həyata keçirildiyi ərazilərdə sərhəd rəsmiləşdirilməli və bu proseslər delimitasiya məntiqi çərçivəsində şəffaf şəkildə aparılmalıdır", - deyə Paşinyan fikrini yekunlaşdırıb.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində təkcə sərhədlərin deyil, anklavkların taleyi də maraq doğurur. "Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya işləri çox böyük prosesdir. Burada çox texniki məsələlər var. Qısa müddət ərzində həyata keçirilə bilən proses deyil. Bu istiqamətdə işlər gedir".

Bunu jurnalistlərə açıqlamasında **xarici işlər naziri Ceyhun Bayramov** deyib. Nazir Azərbaycan nümayəndə heyətinin baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə Ermənistana səfər etdiyini xatırladaraq qeyd edib: "Orada komissiyaların növbəti iclası keçirildi və reqlament tipli üç sənəd razılaşdırıldı. Həmin sənədlər sonrakı prosedurların reqlamentini müəyyən edir. Bundan öncə Qəbələ şəhərinə Ermənistan nümayəndə heyəti gəlmişdi və orada danışıqlar keçirilmişdi. Proses davam edir. Əminəm ki, növbəti aylarda da bunun davamının şahidi olacağıq". 2026-cı ilin may ayına olan məlumata görə, Azərbaycanın Ermənistan ərazisindəki anklav kəndlərinin (Qazağın 4 kəndi - Bağanıs Ayrım, Xeyrimli, Bərxudarlı, Sofulu və Naxçıvanın Kərki kəndi) qaytarılması məsələsi gündəmdə olsa da, bu barədə dəqiq tarix hələ açıqlanmayıb. Hazırda 2026-cı ildə, xüsusən də aprel-may aylarında, sərhəd kəndləri ilə bağlı yeni açıqlamaların və sülh prosesinin davam etdiyi bir dövrdə bu məsələnin yekunlaşması gözlənilir, lakin rəsmi olaraq heç bir dəqiq tarix yoxdur.

Ekspertlər və rəsmi şəxslər anklavlar və eksklavlar məsələsinin, eləcə də delimitasiya prosesinin bir hissəsi olaraq, sülh müqaviləsi imzalandıqdan sonra və ya onunla birlikdə həllinin mümkün olacağını düşünürlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, anklav kəndlərlə bağlı ayrıca ekspert qrupları fəaliyyət göstərir və bu kəndlərin qaytarılması prinsipial məsələdir.

Qeyd edək ki, son açıqlamalarının birində Ermənistanın baş naziri bildirib ki, anklavlarla bağlı qərar hələ də qəbul edilməyib. Nikol Paşinyanın sözlərindən belə anlaşılıb ki, hüquqi müstəvidə bu anklavların bəziləri ilə bağlı əlavə suallar var. Tərəflər bir-birinin ərazi bütövlüyünün tanınmasını müəyyən etdikdən sonra anklavlar məsələsi ortaya çıxır. Paşinyanın dediyindən belə anlaşılır ki, ya sərhədin o tayında qalanlar orada qalacaq, ya da tərəflərdən biri bununla razılaşmasa, başqa həll yolları müzakirə ediləcək.

Bəs anklavlar problemi - sülh sazişindən sonra, yoxsa sülh sazişinə qədər həll olunmalıdır? Bu problem sülh sazişinin imzalanmasına mane olan amillərdəndir?

**Alyans Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, anklavlar məsələsi kifayət qədər problemli və mürəkkəb məsələdir. Bu, xüsusilə Ermənistana aiddir:** "Çünki Azərbaycana məxsus olan və Ermənistan ərazisinin içərisində yerləşən 4 kəndimiz var. Bunlardan üçü Qazax rayonun kəndləridir, biri isə Naxçıvanın Kəngərli kəndidir. Qazağın həmin üç kəndinin verilməsi İrəvandan Gürcüstana gedən yolun bağlanmasına gətirib çıxarır. Hər halda, erməni mütəxəssislər belə deyirlər. Çünki həmin yol bu kəndlərdən keçir. Kərki kəndi isə İrəvandan Qafan, Gorus və İran sərhədinə gedən yolun yaxınlığında yerləşir. Ermənilər ehtiyat edirlər ki, hər iki istiqamətdə Azərbaycan hərbçilərinin yerləşdirilməsi son nəticədə ona gətirib çıxara bilər ki, istədiyi vaxt bu yolları bağlaya bilər və Ermənistan üçün əsl blokada bundan sonra başlayar. Bu səbəbdən həmin kəndlərin verilməməsi variantını düşünürlər və bununla bağlı Ermənistanın baş naziri Nikol Paşinyan da bəyanatla çıxış eləyib. Təklif edir ki, ya anklavlar Azərbaycana verilsin və bunun qarşılığında Başkənd Ermənistana qaytarılsın. Çünki Başkəndi Ermənistan öz ərazisi sayır. Paşinyan ərazi mübadiləsi təklifini də irəli sürmüşdü. İkinci variant təbiidir ki, Ermənistanın xeyrinədir. Başkəndin ərazisi haradasa 40 kvadrat km-dir. Qazağın həmin üç kəndinin ərazi də birlikdə təxminən 40 kv.km-dir. Kərki kəndi isə 20 kv.km-dir. Yəni burada ərazi mübadiləsindən söhbət gedərsə, Başkəndi görünür ki, Ermənistan Qazax ərazisi olan kəndlərlə və ya Kərki və daha iki kəndlə dəyişmək istəyir. Paşinyan yollarla bağlı problemi bu cür həll eləmək istəyir. Ancaq Azərbaycan buna razılıq verərmi? Çünki Ermənistan o qədər də güvənilən qonşu deyil".

**A.Səmədovun qənaətincə, bu səbəbdən ola bilsin Azərbaycan ərazi mübadiləsi variantını qəbul eləməsin:** "Onda artıq gələcəkdə anklavların qaytarılması məsələsi müzakirə oluna bilər. Lakin məsələnin mürəkkəbliyini nəzərə alıb onu bir qədər sonraya saxlamaq barədə razılaşma əldə olunub. Bu, sülh sazişi zamanı ola bilməz. Sülh sazişinə maneçilik anklavlar yaratmır, maneçilik Ermənistan Konstitusiyası ilə bağlıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Gürcüstanın yeni dini lideri haqda sensasion iddialar

## Bəziləri Mitropolit Şionun Rusiyaya həddindən artıq yaxın olduğunu iddia edərək onu tənqid atəşinə tutur



**Mitropolit Şio (Elizbar Muciri - red.) bütün Gürcüstanın yeni - 142-ci katalikos-patriarxı seçilib. Ali dini lider postuna üç namizəd arasında səsvermə Gürcüstan Pravoslav Kilsəsinin geniş toplantısında baş tutub.**

Səsvermədə ruhanilər məclisinin 39 üzvü iştirak edib. Mitropolit Şio 22 səs əldə edib.

Qeyd edək ki, 1977-ci ildən Gürcüstanın katalikos-patriarxı olmuş II İlya martın 17-də 93 yaşında vəfat edib.

1969-cu ildə Tiflisdə, ziyalı ailəsində doğulan Mitropolit Şio (dünyəvi adı) gənclik illəri musiqi sədaları altında keçib. O, 1991-ci ildə Tiflis Dövlət Konservatoriyasını violonçel ixtisası üzrə bitirəndə bəlkə də çoxları onun parlaq musiqi karyerası quracağını düşünürdü. Lakin 90-cı illərin qarışıq Gürcüstanı onu başqa bir yola - monastır divarları arasına çəkdi. (Modern.az)

1993-cü ildə rahibliyə qəbul olunaraq "Şio" adını alan gənc, çox keçmədən kilsə iyerarxiyasında sürətlə yüksəlməyə başladı. Onun bu yüksəlişində həm şəxsi intizamı, həm də Rusiyada aldığı ali dini təhsil böyük rol oynadı.

Metropolit Şionun karyerasının mühüm bir hissəsi Moskva ilə bağlıdır. O, uzun illər Rusiya paytaxtındakı Müqəddəs Georgi gürcü kilsəsinə rəhbərlik edib. Elə bu fakt ekspertləri iki yerə bölür: bəziləri onu Rusiya və Gürcüstan kilsələri arasında "qızıl körpü" hesab edir, bəziləri isə Şionun Moskvaya həddindən artıq yaxın olduğunu iddia edərək onu tənqid atəşinə tutur.

Onun uşaqlıq dostu, tanınmış mühafizəkar və rusiyayönümlü iş adamı Levan Vasadze ilə sıx münasibətləri də bu iddiaları körükləyən amillərdən biridir.

23 noyabr 2017. Həmin gün II İliya gözlənilməz bir qərarla Şio Mujirini özünə varis (Patriarx Taxtının Yerlisi) təyin etdi. Bu, Gürcüstan kilsə tarixində nadir hadisələrdən idi. O vaxtdan bəri Şio, faktiki olaraq, kilsənin ikinci adamıdır.

2023-cü ilin yayında dünya mətbuatı Şio Mujiri haqqında sensasiyalı xəbərlə çalxalandı: Metropolitin qanında civə və digər ağır metallar tapılmışdı. Bu xəbər kilsə daxilindəki "taxt-tac" mübarizəsinin nə dərəcədə kəskinləşdiyini göstərirdi. Şio Mujiri bu hadisədən sağ çıxsa da, bu, onun yolunun heç də hamar olmadığının sübutu idi.

Metropolit Şio müasir liberal dəyərlərə qarşı sərt və mühafizəkar mövqeyi ilə seçilir. O, kilsənin ənənəvi institutlarını qorumağın tərəfdarıdır. Eyni zamanda Azərbaycana və bölgədəki digər dini icmalara qarşı ehtiramlı münasibəti ilə tanınır, dinlərarası dialoqa önəm verir.

**Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov bildirib ki, yaxın günlərdə Şeyxülislam Allahşükür Paşazadə öz təbrikini yeni patriarxa çatdıracaq:** "Gürcüstan-Azərbaycan dostluğu, qonşuluğu çox möhtəşəmdir. Patriarxiya ilə Qafqaz Müsəlmanları idarəsinin neçə illik geniş dostluq əlaqələri var. II İliya ilə Şeyx Həzrətlərinin qardaşlıq, dostluq münasibətləri mövcud idi. Hər ikisi də bölgədə böyük fiqur, şəxsiyyətdilər. İndi Mitropolit Şio (Mudjiri) məsləhət bilinib seçilibsə, təbii Qafqaz Müsəlmanları İdarəsi onu təbrik edəcək. Şeyx həzrətləri yaxın günlərdə təbrikini ünvanlayar".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

# Milli koordinatorun illik məlumatı təsdiqləndi

## Deputatlardan vətəndaşları narahat edən məsələlərlə bağlı təşəbbüslər...




**Mayın 12-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlamentin növbəti plenar iclası keçirilib.**

**Deputat Tural Gəncəliyev** Prezidentin son bəyanatlarına diqqət çəkib və Minsk Qrupunun həmsədrləri olan Amerika Birləşmiş Ştatları, Fransa və Rusiyadan bəhs edib: “Dünyada böyük gücə malik olmalarına baxmayaraq, onlar otuz il ərzində öz qəbul etdikləri qətnamələri belə görməzlikdən gəldilər. Biz beynəlxalq hüquqa münasibətdə açıq selektiv yanaşma ilə üz-üzə qaldıq: böyük dövlətlər yalnız öz geosiyasi maraqlarına uyğun gələn qərarların icrasını təmin edirlər. 2020-ci ildə Azərbaycan dünya miqyasında presedent yaratdı - biz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını silahlı güc və siyasi iradə hesabına təkbaşına təmin etdik. Məhz buna görə də bu gün AŞ PA və Avropa Parlamenti kimi institutlar absurd qətnamələr qəbul edərək və sanksiyalar tətbiq etməyə çalışaraq bizi "cəzalandırmağa" cəhd göstərirlər".

**Deputat Rizvan Nəbiyev** deyib ki, Prezidentin verdiyi mesajlar məkan və zaman nöqteyi-nəzərindən olduqca əhəmiyyətlidir: “Zəngilan işğaldan azad edilmiş Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir. Deməli, Zəngəzurun qərb hissəsi də var, və bu məkanın 1920-ci il noyabrın 30-da Ermənistana verilməsi tarixi faktdır. Başqa sözlə, erməni məsələsindən müxtəlif güclərin Azərbaycana qarşı təzyiq aləti kimi istifadə etməsinin uzun tarixi var. İkincisi, 7 iyun parlament seçkilərinə saylı günlər qaldığından Prezidentin Zəngilandan verdiyi mesajlar xarici qüvvələrlə yanaşı, Ermənistanın bütün siyasi dairələrinə, ələlxüsus revanşistlərə xəbərdarlıqdır”.

İclasda insan alverinə qarşı mübarizə üzrə milli koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı dinlənildi və müzakirə edildi. Məlumatı daxili işlər nazirinin birinci müavini, general-polkovnik, **milli koordinator Seyfulla Əzimov** təqdim edib: “Ötən il işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsində 18 368 nəfərin Dövlət Məşğulluq Agentliyi tərəfindən əmək bazarının tələblərinə cavab verən peşə və ixtisaslar üzrə hazırlıq kurslarına cəlb olunması qeyd edilməlidir. Müvafiq sahədə hüquq pozuntularının qarşısının alınması məqsədilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti obyektlərində keçirilmiş 39 səyyar yoxlama zamanı 1047 işçidən 75-nin əmək münasibətlərinin müəyyən edilmiş qaydada rəsmiləşdirilmədən fəaliyyətə cəlb olunduğu aşkarlanıb”. **Milli koordinator əlavə edib ki, nəticədə bir işəgötürən fiziki şəxs barəsində toplanmış materiallar Baş Prokurorluğa göndərilib, daha 18-i haqqında ümumilikdə 92 200 manat məbləğdə inzibati cərimə tətbiq edilib:** “Dövlət Əmək Müfəttişliyi Xidməti aidiyyəti qurumlardan daxil olmuş materialların araşdırılması zamanı işəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi ilə bağlı 6 fakt aşkarlayaraq aidiyyəti vəzifəli şəxslərə 6000 manat, həmçinin uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi ilə bağlı 1 fakta görə 3300 manat məbləğdə inzibati cərimə tətbiq edib. Bundan əlavə, ixtisaslaşmış xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 1 (sabit) məcburi əmək faktı müəyyən edilərək cinayət işi başlanılıb və aparılmış prosessual araşdırmalarla zərərçəkmiş şəxsin Monteneqroda tikinti sektorunda istismar edildiyi məlum olub”. **S.Əzimov bildirib ki, uşaq əməyinin istismarının qarşısının alınması üzrə həyata keçirilən reydlər zamanı isə ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan 936 uşaq və buna şərait yaradan 511 valideyn aşkarlanıb:** “Nəticədə yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 510 material göndərilib, 32 valideyn inzibati məsuliyyətə cəlb edilərək polis nəzarətinə götürülüb, habelə uşaqların kənar şəxslər tərəfindən dilənçiliyə cəlb edilməsi faktı müəyyən edilməyib”.

Müzakirələr zamanı çıxış edən **deputat Razi Nurullayev** bildirib ki, son dövrlər sosial şəbəkələrdə və müxtəlif platformalarda hüquq-mühafizə orqanları, xüsusilə də Daxili İşlər Nazirliyi ətrafında aparılan müzakirələr ciddi narahatlıq doğurur: “Mən burada bir məqamı xüsusilə vurğulamaq istəyirəm: dövlətin dayaqlarından biri olan hüquq-mühafizə sisteminin məqsədli şəkildə gözdən salınması heç vaxt təkcə bir quruma qarşı kampaniya olmur. Bu, nəticə etibarilə dövlətə, ictimai sabitliyə və milli təhlükəsizlik mühitinə zərbə vurur. Biz dünya təcrübəsinə baxanda görürük ki, bir çox ölkələrdə inqilabi proseslərin və xaosun başlanğıcı məhz dövlət institutlarına inamın sistemli şəkildə sarsıdılması ilə başlayıb. Əvvəl polis hədəfə alınır, sonra məhkəmə, sonra ordu, sonra isə artıq cəmiyyət daxilində "dövlət zəifdir" düşüncəsi formalaşdırılır. Bu isə ən təhlükəli mərhələdir. Mən demirəm ki, problem yoxdur. Problem hər yerdə, hər ölkədə var. Dünyanın ən inkişaf etmiş dövlətlərində də hüquq-mühafizə sistemində nöqsanlar olur, vətəndaş narazılığı olur, sui-istifadə halları olur. Amma əsas məsələ problemlə necə davranmaqdır. Biz problemləri həll etmək istəyirik, yoxsa onu emosional şəkildə böyüdüb cəmiyyətlə dövlət arasında uçurum yaratmaq istəyirik? Bu gün sosial şəbəkələrdə bəzən bir hadisə araşdırılmadan, hüquqi qiymət verilmədən, emosional videolar və çağırışlarla təqdim olunur. Nəticədə isə insanlar arasında aqressiya artır, dövlət institutlarına etimad zədələnir. Halbuki istənilən məsələni qanun çərçivəsində, institutlar daxilində, masa arxasında və bağlı qapılar arxasında müzakirə etmək daha sağlam yanaşmadır".

Müzakirələrdən sonra məlumat təsdiqlənib.

“Yaşıllıqların mühafizəsi haqqında” Qanuna təklif edilən dəyişikliklər ilk oxunuşda müzakirəyə çıxarılıb.

**Qüdrət Həsənquliyev deyib ki, Xətai rayonundakı seçicilər tərəfindən çoxsaylı müraciətlər alır:** “Özüm hətta onlarla görüşlərdə seçicilərin bir çox şikayətləri ilə rastlaşmışam ki, Bakı şəhərində binaların həyətindəki ağacların suvarılmasında çox ciddi problemlər var. Yəni su pulunun kim tərəfindən ödənilməsi ilə bağlı... O cümlədən ağacların bir çox hallarda budanmaması, yaxud qurumuş ağacların kəsilməsi ciddi problemlərlə üzləşib. Allah ruhunu şad eləsin, mərhum prezident Heydər Əliyevin yaşıllığa verdiyi xüsusi qiymətdən çox təəssüf ki, bəzi hallarda hətta sui-istifadə edilir və bizim qanunvericilikdə də yaşıllığın götürülməsi xeyli dərəcədə çətinləşdirilib”. **Deputat qeyd edib ki, bu prosedur xeyli dərəcədə sadələşdirilməlidir ki, vətəndaşlar süründürməçiliklə üzləşməsinlər:** “Biz görürük ki, bir çox hallarda ən yaxşı şüarlar altında çox pis işlər görülür və o prosedurun çətinliyi bir çox hallarda vətəndaşları qanunsuz yollara əl atmağa məcbur edir. Ona görə də bu prosedur xeyli dərəcədə sadələşdirilməlidir”.

“Vətəndaşların müraciətləri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı **deputat Vüqar Bayramov** bildirib ki, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır. Qeyd edib ki, vətəndaşların müraciətinə baxılma müddəti 2015-ci ildə müəyyənləşdirilib: “Ötən 10 ildə proseslər kifayət qədər rəqəmsallaşdırılıb və elektron məlumatlar inteqrasiya olunub. Azərbaycanda dataların elektronlaşdırılması sahəsində ciddi uğurların əldə edilməsinə baxmayaraq, vətəndaşların müraciətinə baxılma müddəti dəyişdirilməyib. Bu gün müzakirə etdiyimiz dəyişikliklər də vətəndaşların müraciətlərində elektronlaşmasını dəstəkləyir və təşviq edilir. Bu isə o deməkdir ki, elektronlaşma və rəqəmsallaşma kontekstində vətəndaşların müraciətlərinə baxılma müddətinə baxılması və müddətin azaldılması məqsədəuyğun olardı. Çünki 15 iş günü 1 aya yaxın zaman deməkdir. Hətta dövlət qurumu tərəfindən müddət uzadılıb 30 iş günü müəyyənləşəndə bu bir ay yarım deməkdir. Etiraf edək ki, elektron məlumatların inteqrasiyasının sürətləndiyi dövrdə bu, qısa müddət hesab edilə bilməz”.

İclasda “Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarılaraq qəbul edilib. **Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov** öncə bildirib ki, Milli Məclisə Quba rayon ictimaiyyəti tərəfindən müraciət daxil olub. Həmin müraciətdə rayonun Vladimirovka, Alekseyevka və Timiryazev kəndlərinin sakinlərinin tarixi-milli dəyərlərin qorunması və yaşayış məntəqələrinin yerli xüsusiyyətlərini daha dolğun əks etdirən adlarla əvəz olunması məqsədilə bu kəndlərin adlarının dəyişdirilməsi təşəbbüsü ilə çıxış etdikləri, bununla bağlı müvafiq təkliflərin irəli sürüldüyü bildirilib: “Vladimirovka və Alekseyevka kəndlərində ilkin dövrlərdə əsasən rus etnik mənsubiyyətli şəxslər yaşayıb. Lakin hazırda əhalisi 3437 nəfər olan Vladimirovka kəndində rus etnik mənsubiyyətli cəmi 7 ailə yaşayır, əhalisi 3719 nəfər təşkil edən Alekseyevka kəndində isə rus etnik mənsubiyyətli ailə yoxdur. Timiryazev kəndinə gəldikdə isə, həmin kəndə bu ad 1965-ci ildə verilib. Bunun səbəbi kənd ərazisində fəaliyyət göstərən sovxozun rus bioloqu Kliment Arkadyeviç Timiryazevin şərəfinə adlandırılması olub. Kəndin əvvəlki adları ”11 Verst" və “11 nömrəli sovxoz” olmuşdur. Hazırda əhalisi 2567 nəfər olan bu kənddə də rus etnik mənsubiyyətli ailə yaşamır. Mühüm məqamlardan biri də ondan ibarətdir ki, qeyd olunan hər üç kəndin sakinləri və aidiyyəti bələdiyyələri yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi təşəbbüsünü dəstəkləyib və bununla bağlı müvafiq müraciətlə çıxış ediblər. Bu isə onu göstərir ki, təklif olunan dəyişikliklər yerli əhali tərəfindən də rəğbətlə qarşılanır və ictimai əsaslara söykənir. Təklif olunur ki, Quba rayonunun Vladimirovka kənd inzibati ərazi dairəsi tərkibinə daxil olan Vladimirovka kəndi Elbir, Alekseyevka kənd inzibati ərazi dairəsi tərkibinə daxil olan Alekseyevka kəndi Çinarlı, Timiryazev kəndi isə Bəhrəli adlandırılsın".

***Müzakirələrdən sonra dəyişiklik təsdiqlənib.***

❑ **Elşad PAŞASOY,**
**“Yenì Müsavat”**

YENİ MÜSAVAT
N 13 (8867) 13 may 2026

# Pul arxasınca paytaxta axın

## Bakıda kiçik bir kafe və ya market qısa müddətdə müştəri toplaya bildiyi halda, rayonlarda sahibkar eyni nəticəni əldə etmək üçün daha çox vaxt və resurs sərf etməli olur...



**Son illərdə Azərbaycanda sahibkarlıq fəaliyyətinin əsas mərkəzi kimi yenə də Bakı ön planda qalır. Paytaxtda yeni bizneslərin sayı artır, xidmət sektoru genişlənir, rəqəmsal ticarət sürətlə böyüyür. Ən gəlirli sahələr sırasında tikinti, daşınmaz əmlak, restoran və kafe biznesi, market şəbəkələri, avtomobil xidmətləri, gözəllik sektorları və onlayn satış platformaları dayanır.**

Müşahidələr göstərir ki, xüsusilə kirayə mənzil bazarı, çatdırılma xidmətləri və sosial şəbəkə üzərindən qurulan bizneslər son illərdə ən sürətli qazanc gətirən istiqamətlərə çevrilib. Paytaxtda əhalinin sıxlığı, alıcılıq qabiliyyətinin yüksək olması və gündəlik aktiv həyat tərzi sahibkarlar üçün böyük bazar yaradır.

Ancaq məsələnin digər tərəfi də var: ölkənin iqtisadi yükünün böyük hissəsi hələ də Bakının üzərində qalır. Rayonlarda biznes imkanlarının zəif olması isə insanların paytaxta axınının əsas səbəblərindən biri kimi göstərilir.

Məsələn, Bakıda kiçik bir kafe və ya market qısa müddətdə müştəri toplaya bildiyi halda, rayonlarda sahibkar eyni nəticəni əldə etmək üçün daha çox vaxt və resurs sərf etməli olur. Çünki bölgələrdə əhalinin alıcılıq qabiliyyəti aşağıdır, biznes dövriyyəsi zəifdir, bəzi yerlərdə isə logistika və nəqliyyat problemləri qalmaqdadır.

Digər mühüm məsələ işçi qüvvəsi ilə bağlıdır. Gənclərin böyük hissəsi təhsil və iş imkanları səbəbindən Bakıya üz tutur. Nəticədə rayonlarda həm peşəkar kadr çatışmazlığı yaranır, həm də yerli bizneslərin inkişaf tempi zəifləyir. Bu isə regionlarda iqtisadi canlanmanı daha da ləngidir.

Ekspertlər hesab edir ki, bölgələrdə sahibkarlığın inkişafı üçün ilk növbədə vergi güzəştləri, ucuz kreditlər və istehsalyönümlü layihələr genişləndirilməlidir. Xüsusilə aqrar emal müəssisələri, soyuducu anbarlar, kənd turizmi və regional logistika mərkəzləri rayonlarda yeni iqtisadi nəfəs yarada bilər.

Turizm potensialı olan rayonlarda isə vəziyyət tam fərqlidir. Qəbələ, Şəki, Quba, Lənkəran kimi bölgələrdə hotellər, ailəvi istirahət mərkəzləri və kənd evləri artıq gəlirli biznes istiqamətinə çevrilməyə başlayıb. Lakin bu inkişaf hələ bütün regionları əhatə etmir.

Bu gün Bakıda biznesin sürətlə böyüməsi bir tərəfdən iqtisadi aktivliyi artırsa da, digər tərəfdən regionlarla paytaxt arasındakı fərqi daha da dərinləşdirir. İnsanlar yaşadıqları rayonda sabit qazanc və inkişaf perspektivi görmədikcə, paytaxta köç davam edəcək.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı ilə bağlı indiyə qədər 4 dövlət proqramı icra olunub. Bunlar 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə edib. Hazırda da bu proqramların davamı kimi yeni regional inkişaf siyasəti müxtəlif layihələr vasitəsilə davam etdirilir. Amma buna baxmayaraq, regionlardan ölkənin mərkəzinə axın dayanmayıb: "Müəyyən canlanma hiss olunsa da, bu, problemi effektiv şəkildə həll etməyə kifayət etməyib. İlk növbədə Azərbaycan hökuməti ölkə iqtisadiyyatındakı disbalansın aradan qaldırılmasını hədəfləməlidir.

Rəqəmlərə diqqət etsək görərik ki, Azərbaycan iqtisadiyyatının təxminən 90 faizi Bakı və ətrafında formalaşır. İxracın da böyük hissəsi paytaxtın payına düşür. Belə bir şəraitdə insanların Bakıya axınının qarşısını almaq praktik olaraq mümkün deyil. Hökumət ilk növbədə bu göstəriciləri dəyişməyə çalışmalıdır. İqtisadiyyat ölkə ərazisi üzrə mümkün qədər balanslı şəkildə yayılmalıdır. Sənaye obyektləri daha çox regionlarda qurulmalıdır. Bu, həm məşğulluğu artırar, həm istehsala ehtiyacı yüksəldər, həm də bölgələrin iqtisadi imkanlarını genişləndirər.

Hazırda Azərbaycan iqtisadiyyatı bir nöqtəyə cəmləşmiş vəziyyətdədir - paytaxt böyüyür, regionlar isə zəifləyir. Bu problemin aradan qaldırılması üçün bölgələrdə real iqtisadi imkanlar yaradılmalıdır ki, insanlar paytaxta köçmək məcburiyyətində qalmasınlar".

Ekspert deyib ki, kənd təsərrüfatı sahəsində də ciddi addımlar atılmalıdır. Hökumətin bu sahədə konkret nəticəyə hesablanmış iqtisadi siyasəti olmalıdır ".

**Sosioloq Üzeyir Şəfiyev** qeyd edir ki, hər il əmək bazarına təxminən 100-110 min yeni işçi qüvvəsi daxil olur. Bu isə göstərir ki, əmək bazarında vəziyyət kifayət qədər gərgindir. Yeni yaradılan iş yerlərinə baxdıqda isə onların təxminən 80 faizinin paytaxt və iri şəhərlərdə formalaşdığı görünür: "Bu səbəbdən əmək bazarının diversifikasiyasına ciddi ehtiyac var. Daha çox çalışmaq lazımdır ki, regionlarda yeni iş sahələri açılsın. Xüsusilə də gənclərin maraq və həyat tərzinə uyğun iş imkanları yaradılmalıdır. Çünki gənclər daha çox paytaxta və iri şəhərlərə üz tuturlar. Bunun əsas səbəblərindən biri regionlarda onların gözləntilərinə uyğun iş yerlərinin az olmasıdır.

Bu məsələyə xüsusi diqqət ayrılmalıdır. Paralel şəkildə regionlarda gənclərin qalması üçün torpaq sahələri ilə təminat, güzəştli mənzil imkanları və digər sosial mexanizmlər də gücləndirilməlidir.

Əslində gənclərin paytaxta axınının səbəbi yalnız iş deyil. Onlar həm də sosial və mənəvi ehtiyaclarını ödəmək üçün iri şəhərlərə üz tuturlar. Buna görə rayon mərkəzlərində elə bir mühit yaradılmalıdır ki, gənclər paytaxta getmədən də özlərini inkişaf etdirə, sosial həyatın bir hissəsi ola bilsinlər.

Bəzi rayonlarda mövsümi məşğulluq müəyyən qədər vəziyyəti yüngülləşdirir. Yay mövsümündə turizm bölgələrində iş imkanları artır və bu da məşğulluğa müsbət təsir edir. Amma məsələ mövsümi deyil, davamlı həll olunmalıdır. Bunun üçün turizmin inkişafı, yeni xidmət sahələrinin yaradılması və şəhərlə kənd arasındakı fərqlərin azaldılması vacibdir. Ən azı məşğulluq imkanları baxımından rayonlarla paytaxt arasındakı fərq minimuma endirilməlidir.

Bu isə yeni iş yerlərinin yaradılmasını tələb edir. Hesab edirəm ki, regionlarda əməkhaqqı müəyyən sahələr üzrə paytaxtla müqayisədə daha yüksək olmalıdır ki, bu da insanlar üçün motivasiya yaratsın. Dünyanın bir çox ölkəsində bu təcrübədən istifadə olunur. Azərbaycanda da belə yanaşma tətbiq edilsə, regionlara maraq arta bilər".

**Sosioloq deyir ki, bundan başqa, bəzi ali təhsil müəssisələrinin, agentliklərin və dövlət qurumlarının struktur bölmələrinin regionlara köçürülməsi də faydalı ola bilər:** "Əgər regionlarda məşğulluq artırılsa, kənd təsərrüfatında innovativ texnologiyalar tətbiq olunsa və yeni iş sahələri yaradılsa, bu, həm iqtisadiyyata müsbət təsir edər, həm də bir sıra məhsullar üzrə xaricdən asılılığı azaldar.

Bunun üçün isə sistemli yanaşma lazımdır. Regionların sosial-iqtisadi inkişaf proqramları 2004-cü ildən tətbiq olunur. Amma artıq bu proqramlar çərçivəsində daha effektiv və nəticəyönümlü mexanizmlərdən istifadə edilməlidir. Eyni zamanda proqramların monitorinqi gücləndirilməli, yerli icra strukturlarından konkret hesabat tələb olunmalıdır. Məsələn, hansı layihə nəticəsində nə qədər yeni iş yeri yaradılıb, neçə gənc işlə təmin olunub, regionlardan paytaxta axın nə qədər azalıb - bütün bunlar konkret rəqəmlərlə ölçülməlidir. Yalnız bu halda regionlarda məşğulluğun inkişafı istiqamətində real nəticələr əldə etmək mümkün olacaq".

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**




## Diplomatlar pensiyaya çıxanda 6 qat maaş alacaq

**Diplomatlara pensiyaya çıxarkən ya son 24 ayda, ya da istənilən ardıcıl 60 ayda aldıqları orta aylıq maaş əsasında hesablanan məbləğin 6 misli həcmində birdəfəlik ödəniş veriləcək.**

Məsələ Milli Məclisin mayın 12-də keçirilən plenar iclasında müzakirə edilən "Diplomatik xidmət haqqında" layihədə əksini tapıb.

Layihəyə əsasən, diplomatik xidmət əməkdaşlarının dövlət məvacibinin strukturu yenidən müəyyənləşdirilir. Belə ki, maaşa aylıq vəzifə maaşı, diplomatik rütbəyə görə əlavə haqq, təmsilçiliyə görə əlavə haqq, eləcə də artıq iş vaxtına görə ödəniş daxil ediləcək. Bundan başqa, əmək şəraitinin ağırlığı və iqlim şəraiti ilə bağlı əlavələrin də tətbiqi nəzərdə tutulur. Dəyişikliklərə əsasən, diplomatik xidmət əməkdaşlarının aylıq vəzifə maaşları və əlavələri "Dövlət qulluğu haqqında" Qanunun 33-4-cü maddəsində müəyyən edilən şərtlərə uyğun formalaşdırılacaq. Xidməti fəaliyyəti qiymətləndirilən vəzifələrdə çalışan əməkdaşların əməyinin ödənişi diplomatik xidmət stajı və fəaliyyət nəticələri nəzərə alınmaqla müəyyən ediləcək.

Layihədə qeyd olunur ki, diplomatik xidmətə qəbul prosesi başa çatana qədər diplomatik vəzifədə müvəqqəti çalışan şəxslərin aylıq maaşı həmin vəzifənin birinci ödəniş pilləsi üzrə maaşın 50 faizi həcmində müəyyən ediləcək.

Qanun layihəsində pensiya yaşına çatdığına görə diplomatik xidmətdən ayrılan şəxslərlə bağlı müddəalar da dəyişdirilir. Belə ki, diplomatik xidmət orqanı əməkdaşına diplomatik xidmətdə son 24 ay və ya istənilən ardıcıl gələn 60 ay üzrə orta aylıq dövlət məvacibinin 6 misli həcmində birdəfəlik haqq veriləcək. Həmin məbləğdən vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər tutulacaq.

YENİ MÜSAVAT
N 18 (8867) 13 may 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Banklar kredit verməyə müştəri tapmır?

## Hazırda banklar fiziki şəxslərdən əmanət şəklində topladıqları irihəcmli vəsaitlərin izafi likvidliyi ilə üzləşiblər

**Azərbaycan banklarının kredit portfelinin artım sürəti kəskin azalıb. Belə ki, bu ilin mart ayının sonuna Azərbaycanda fəaliyyət göstərən bankların kredit portfelinin həcmi 30 milyard 290,3 milyon manat təşkil edib.**

Azərbaycan Mərkəzi Bankının (AMB) statistikasına əsasən kredit portfeli ötən ilin sonu ilə müqayisədə 227,3 milyon manat və ya 0,8 faiz artıb. Xatırladaq ki, ötən ilin birinci rübünün sonunda bankların kredit portfeli 2024-cü ilin sonu ilə müqayisədə 399,4 milyon manat və ya 1,5 faiz artmışdı.

Yəni ötən ilin birinci rübü ilə müqayisədə bu ilin birinci rübündə banklar 172,1 milyon manat (43,1 faiz) daha az kredit verib. 2025-ci ilin ilk üç ayında 399,4 milyon manat kredit verilmişdisə, bu ilin eyni dövründə bu məbləğ 227,3 milyon manat olub (FED.az).

Bu tendensiya aylıq müqayisədə də hiss olunur. Belə ki, bu ilin mart ayında bankların kredit portfeli 0.6 faiz və ya 171.5 milyon manat artıb. 2025-ci ilin mart ayında bankların kredit portfeli 1 faiz və ya 284.8 milyon manat artmaqla 27,877.1 milyon manata çatmışdı.

Maraqlıdır ki, bankların kredit vermək üçün vəsaitləri yetərincədir. Belə ki, AMB İdarə Heyətinin sədri Taleh Kazımovun verdiyi məlumata görə, cari il aprelin sonuna Azərbaycan banklarında 3,8 milyard manat həcmində izafi likvidlik olub. Ötən ilin eyni dövründə bu göstərici 2,9 milyard manat təşkil etmişdi. Hansı ki, həmin dövrdə Maliyyə Nazirliyi 1 milyard manat məbləğində büdcə qalığını 5 böyük banka depozit kimi yerləşdirməklə likvidliyə ciddi töhfə verirdi. Bu il büdcə gəlirlərində ciddi artımın olmaması şəraitində nazirliyin belə bir imkanı yoxdur. Belə ki, Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri 13 milyard 564 milyon manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz azdır.

Hazırda banklar fiziki şəxslərdən əmanət şəklində topladıqları irihəcmli vəsaitlərin izafi likvidliyi ilə üzləşiblər.

Kreditlərin artım sürətinin azalmasının əsas səbəbi iqtisadiyyatda qeydə alınan geriləmədir. Dövlət Statistika Komitəsinin məlumatına görə, birinci rübdə Azərbaycan iqtisadiyyatı 0,3 faiz daralıb. Digər tərəfdən, ölkədə iqtisadi aktivliyin drayveri olan büdcə xərcləmələri də azalıb. Maliyyə Nazirliyinin hesabatından məlum olur ki, dövlət büdcəsinin xərcləri ilin ilk rübündə 10 milyard 531,1 milyon manat olub - bu, bir il əvvələ nisbətən 3,9 faiz azdır. Büdcə xərcləmələrinin azalması iqtisadiyyatın demək olar ki, bütün sektorlarında aktivliyin azalmasına, bu da öz




növbəsində biznesin və əhalinin gəlirlərinin azalmasına gətirib çıxarır. Belə şəraitdə kredit həcmlərində artım dinamikasının zəifləməsi baş verir.

Məlumdur ki, əmanətlər müəyyən faizlə əhalidən cəlb olunan vəsaitlərdir və banklar onlara görə pul sahiblərinə faiz ödəyirlər. Kredit verilişindəki azalma bankların əmanətlərə xidmət xərclərini qarşılamalarında problemlərə gətirib çıxara bilər. Bu şəraitdə bankların əsas çıxış yolu kredit faizlərini artırmaq ola bilər. Bu isə istehlak kreditlərində daha tez təsbiq olunan dəyişiklik hesab edilir.

Son bir ildə Mərkəzi Bankın istehlak kreditlərinə qarşı məhdudlaşdırıcı tədbirlərinə rəğmən kreditin bu növündə illik artım digərlərinə nisbətən daha yüksəkdir. Belə ki, bu ilin birinci rübünün sonuna Azərbaycanda istehlak kreditlərinin həcmi 9 milyard 491 milyon manata çatıb. Bu o deməkdir ki, istehlak kreditlərinin həcmi illik müqayisədə 887 milyon manat artıb. Xatırladaq ki, 2025-ci il aprelin 1-nə istehlak kreditlərinin həcmi 8 milyard 604 milyon manat olmuşdu.

Rüb ərzində istehlak kreditlərinin artım sürəti zəifləyib. Belə ki, ötən ilin birinci rübü ərzində istehlak kreditləri 159 milyon manat və ya 2024-cü ilin sonu ilə müqayisədə 1,9 faiz artmışdı. Bu il isə ilk 3 ayda istehlak kreditləri portfeli cəmi 137 milyon manat artıb ki, bu da 1,5 faiz artım deməkdir. Lakin kredit portfelinin strukturuna baxsaq, ötən ilin birinci rübü ilə müqayisədə ən sürətli artımın istehlak kreditlərində getdiyini görmək olar. Belə ki, cari ilin yanvar-martında bu kreditlərin məbləği illik ifadədə 10,3 faiz, biznes kreditləri 8,5 faiz (14 milyard 935 milyon manatdan 16 milyard 214 milyon manata), ipoteka kreditləri isə 5,6 faiz(4 milyard 338,5 milyon manatdan 4 milyard 584,6 milyon manata) artıb.

İstehlak kreditlərinin daha sürətlə artması nəticəsində bankların faiz gəlirlərində də kəskin artım qeydə alınıb. Mərkəzi Bankın məlumatına görə, bu ilin birinci rübündə Azərbaycanda fəaliyyət göstərən bankların gəlirlərinin həcmi 1 milyard 822,8 milyon manat olub. Bu gəlirlərin 1 milyard 342,1 milyon manatı faiz gəlirlərinin payına düşüb. Bu isə o deməkdir ki, faiz gəlirləri ötən ilin birinci rübü ilə müqayisədə 207,2 milyon manat və ya 18,3 faiz artıb. 2025-ci ilin birinci rübündə bankların faiz gəlirləri 1 milyard 342,1 milyon manat olmuşdu.

İnflyasiyanın sürətləndiyi bir şəraitdə əhalinin xərclərini qarşılamaq üçün daha çox istehlak kreditlərindən istifadəyə məcbur olmasına, bu isə son nəticədə banklar üçün daha ciddi bir porblemin - problemli kreditlərin həcmində artıma gətirib çıxara bilər. Bu baxımdan, bankların istehlak kreditləri faizləri və verilməsində daha ehtiyatlı davranmasında fayda var.

Yeri gəlmişkən, İran müharibəsinin neft-qaz qiymətlərində yaratdığı bahalaşma ikinci rübdən etibarən Azərbaycanın büdcə gəlirlərində müvafiq olaraqsa xərclərində artıma səbəb olmaqla, iqtisadi aktivliyə töhfə verəcəyi gözlənilir. Bu şəraitdə kreditləşmədə artım dinamikasının bərpası da gözləniləndir.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Dünya aviasiyası böyük zərərdə

## Yanacağın bahalaşması hava nəqliyyatında qiymətləri artırır

**İran münaqişəsi, xüsusilə Hörmüz boğazının fəaliyyətində yaranan ciddi problemlər bütün dünya boyu aviaşirkətlərə zərər vurur. Bu şirkətlər həm müharibəyə görə Yaxın Şərqin tələbatlı yerlərinə uçuşları məhdudlaşdırırlar, həm də artan yanacaq xərclərinin yaratdığı problemlərlə üzləşirlər.**

Hələ mart ayında dünya aviasiya şirkətlərinin İran münaqişəsinə görə Yaxın Şərq səmasının bağlanması nəticəsində icra olunmayan reyslərə görə 53 milyard dollar itirdiyinə dair hesabat açıqlanmışdı.

"Reuters"in məlumatına görə, yaranmış vəziyyətdə dünya üzrə daşıyıcılar yanacaq xərclərindəki artımı kompensasiya etmək üçün bilet qiymətlərini qaldırır və marşrutları ixtisar edirlər.

Bugünlərdə "Financial Times" qəzeti "Goldman Sachs" analitiklərinin hesablamalarına istinadən təxminən 45 günlük qlobal neft məhsullarının - benzin, dizel və reaktiv yanacaq ehtiyatlarının qaldığına dair məlumat yayıb. Qeyd edilir ki, Asiya və Afrikada ehtiyatlar xüsusilə sürətlə tükənir. Bu fonda neftin qiyməti artmaqda davam edir və analitiklər ehtiyatlar kritik səviyyələrə çatdıqdan sonra xam neftin qiymətlərində kəskin artımın mümkünlüyü barədə xəbərdarlıq edirlər.

Nəşrə görə, qlobal neft ehtiyatları təkcə aprel ayında təxminən 200 milyon barel azalıb. Yəni gündə təxminən 6,6 milyon barel. Bu da normaldan xeyli yüksəkdir.

"Bu, normal diapazondan xeyli yüksək olan çox böyük bir rəqəmdir. Qaçılmaz bazar hesablaşması gəlir", - S&P şirkətinin xam neft tədqiqatlarının rəhbəri Cim Burkhard bildirib.

Qeyd edək ki, Yaxın Şərqdə münaqişənin başlanğıcından bəri xam neftdən istehsal olunan təyyarə yanacağının qiyməti 80 faizdən çox artıb. Bu da öz növbəsində dünyanın hər yerindəki aviaşirkətləri bilet qiymətlərini qaldırmağa, uçuş mövcudluğunu azaltmağa və ya hər ikisini etməyə məcbur edir.

Ən bariz nümunə Amerikanın aşağı büdcəli daşıyıcısı "Spirit Airlines"dir. 2 mayda şirkət fəaliyyətini tamamilə dayandırdığını elan edib. Bunun əsas səbəbi yanacaq qiymətlərinin "göy üzünə çıxması"dır.

Aviasiya təhlil mərkəzi "Cirium"a görə, ABŞ və Çindən Yaponiyaya, Avstraliyaya və Avropanın böyük bir hissəsinə qədər dünya üzrə aviaşirkətlər 1 iyundan 30 sentyabra qədər cədvəllərindən 9,3 milyon yeri siliblər. Yaxın Şərq xüsusilə ağır zərbə alıb. Daşıyıcılar hələ də İranın Dubay və Doha kimi regional mərkəzlərə hücumlarına cavab olaraq hava məkanının bağlanmasından əziyyət çəkirlər. Təkcə "Qatar Airways" iyundan oktyabr ayına qədər olan dövrdə iki milyon yeri silib. "Emirates" və "Etihad Airways" (BƏƏ) müvafiq olaraq 700.000 və 450.000 yeri azaldıblar.

**Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) baş direktoru Villi Uolş xəbərdarlıq edib ki, Avropa və Asiyanın bəzi bölgələri qarşıdakı həftələrdə təyyarə yanacağı çatışmazlığı ilə üzləşə bilər:** "Hamı təyyarə yanacağı ilə bağlı vəziyyəti izləyir. Hələlik yay mövsümü səyahət üçün adi məşğul vaxt olacaq. Lakin aviaşirkətlərin dayanıqlılığı yanacaq təchizatının və qiymətlərinin sabitləşməsindən çox asılı olacaq".



Artıq dünyanın əksər böyük aviaşirkətləri artan yanacaq xərclərinə görə zərərlərini və onu kompensasiya etmək üçün addımları açıqlayıblar.

"British Airways", "Aer Lingus" və "İberia" şirkətlərinin daxil olduğu "International Airlines Group"un təyyarə yanacağına çəkdiyi xərc 2 milyard avro artacaq. "Financial Times" mənbələrə istinadən xəbər verir ki, xərclərin artmasına Yaxın Şərqdəki münaqişə səbəb olub.

Almaniyanın "Lufthansa" şirkəti artan yanacaq qiymətlərinin 2026-cı ildə qrupa 1,7 milyard avroya başa gələcəyini açıqlayıb. Onun törəmə şirkəti olan "ITA Airways" artan yanacaq xərclərini kompensasiya etmək üçün 2026-cı ildə bilet qiymətlərini 5-10 faiz artıracaq. "Lufthansa" həmçinin qısa və orta məsafəli uçuşlar üçün yeni "Economy Basic" tarifini təqdim etdi ki, bu da sərnişinlərə yalnız noutbuk çantası və ya kiçik bel çantasını pulsuz daşımağa imkan verəcək. Aviaşirkət əvvəllər 2026-cı ilin oktyabr ayına qədər qısa məsafəli uçuş cədvəlini 20.000 avro azaldacağını açıqlamışdı.

Türk Hava Yolları və "Lufthansa" arasında birgə müəssisə olan SunExpress Türkiyə ilə kontinental Avropa arasında uçuşlarda sərnişin başına müvəqqəti olaraq 10 avro yanacaq əlavə haqqı tətbiq edəcək.

Türkiyənin aşağıbüdcəli aviaşirkəti olan "Pegasus Airlines" 2026-cı ilin birinci rübünü 163 milyon avro xalis zərərlə başa vurub. Şirkətin açıqladığı rüblük hesabata əsasən "Pegasus Airlines" 2026-cı ilin birinci rübündə satış gəlirlərini ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz artıraraq 642 milyon avroya çatdırıb. Lakin ümumi xərclərin 11faiz artaraq 750 milyon avroya çatması nəticəsində şirkət birinci rübdə 153 milyon avro xalis zərər elan edib. Keçən ilin eyni dövründə xalis zərər 62 milyon avro olmuşdu.

Şirkətin açıqlamasına görə, zərər 3 dəfəyə yaxın yüksəlməsinə yanacaq qiymətlərinin artmasına səbəb olan yüksək geosiyasi gərginliklər, artan texniki xidmət xərcləri və çətin bazar şərtləri səbəb olub.

❑ **"Yeni Müsavat"**

# Dünyanın gözü Orta dəhlizdə

## Ekspertə görə, Orta dəhlizin rentabelliyini artırmaq üçün regional kommunikasiyanın tam bərpa edilməsi reallaşmalı, Şimal-Cənub nəqliyyat dəhlizində yarımçıq qalan işlər tamamlanmalıdır

**İran müharibəsi dünyanın diqqətini yenidən qlobal ticarətin dar dəniz boğazlarından asılılığına yönəldib. Son illərdə artıq neçənci dəfədir ki, Şərqlə Qərb arasında dəniz yollarının kənar təsirlərə həssaslığı fonunda quru nəqliyyat dəhlizlərinin imkanlarının artırılması zərurəti ortaya çıxır. Bu mənada, Asiya və Avropa arasında multimodal daşımaları nəzərdə tutan Orta dəhlizin əhəmiyyəti gündəmə gətirilir.**



Qeyd edək ki, İran müharibəsi Asiya ilə Avropa arasında yükdaşımaların Cənubi Qafqazdan keçən bir yolu olan Şimal-Cənub Nəqliyyat Dəhlizinin (ŞCND) şərq və qərb qollarının fəaliyyətini demək olar ki, tamamilə dayandırıb. Bundan əlavə, Orta Asiya və Əfqanıstanın İran limanları vasitəsilə qurulmuş ticarət əlaqələri iflic olub.

Şimal-Cənub dəhlizinin şərq qolu ənənəvi olaraq Hindistandan dəniz yolu ilə İranın Çabahar limanına, daha sonra isə İran, Türkmənistan vasitəsilə Özbəkistan, Qazaxıstan və Rusiyaya malların daşınmasına xidmət edir. Qərb qolu isə Azərbaycandan keçir. Münaqişənin kəskin mərhələsində ŞCND-nin şərq qolu faktiki olaraq dayandı: Çabahara gedən dəniz yolu mina təhlükələri, ABŞ-İsrail hava qüvvələrinin hücumları və nəticədə sığorta təminatının ləğvi səbəbindən mümkün olmadı. Eyni zamanda Türkmənistan sərhədinə aparan İran dəmir yolu və avtomobil yolları raket zərbələrinə və böyük dağıntılara məruz qalıb.

Qərb marşrutu da dayandı, çünki marşrutun İran hissəsi İsrail Hərbi Hava Qüvvələrinin Qərbi İran üzərindəki ən aktiv döyüş əməliyyatları zonasında yerləşirdi.

Beləliklə, İrandan Hind okeanı limanlarına uzanan yüklərin böyük hissəsi Orta dəhlizə axın edib. Atəşkəsdən sonra vəziyyət gərgin olaraq qalır. Dəniz daşıyıcıları ABŞ-nin blokadası fonunda sığorta şirkətləri İran limanlarına giriş üçün sığortanı bərpa etmək istəmədikləri üçün Oman körfəzinə son dərəcə ehtiyatla qayıdırlar.

ŞCND-nin şərq qolu rəsmi olaraq açıqdır, lakin yükdaşımaları müharibədən əvvəlki səviyyənin yalnız kiçik bir hissəsini təşkil edir: zədələnmiş infrastruktur bərpa olunmayıb, logistika operatorları hərbi əməliyyatların yenidən başlamasından qorxurlar.

Azərbaycandan keçən qərb qolunda canlanma olsa da, yenə də İran limanlarının yükötürmə qabiliyyətinin azalması fonunda əvvəlki səviyyədən uzaqdır.

Beləliklə, Çindən başqa, Asiyanın iki dövləti - Özbəkistan və Əfqanıstan da yükdaşımalar üçün Orta dəhlizə üz tuturlar.

Lakin Orta dəhliz boyunca yükdaşımaların daha da artmasına mane olan bir neçə amil var ki, bunlardan biri də dəhlizin Qazaxıstandan keçən hissəsi boyunca liman və dəmir yolu infrastrukturunun məhdud tutumudur. Beynəlxalq maliyyə institutları Qazaxıstanın dəmir yolu infrastrukturunun genişmiqyaslı modernləşdirilməsini dəstəkləməyə hazır olduqlarını açıqlayıblar. Bu strukturun dəmir yolu şəbəkəsinin inkişafı, tutumun artırılması və Qazaxıstanın əsas hissələri boyunca logistikanın yaxşılaşdırılması üçün 1,4 milyard dollarlıq özəl investisiya səfərbər etməsi gözlənilir.

Aprelin sonunda Astanada Orta dəhliz - Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin iclası və ümumi yığıncağı keçirilib. İclasda təsdiqlənmiş plan konteyner daşımalarının həcmlərinin artırılmasını, o cümlədən bu il yalnız Çindən Qazaxıstan vasitəsilə 600 konteyner qatarının tranzitini nəzərdə tutur. Eyni zamanda Xəzər dənizinin limanları və terminalları arasında koordinasiya gücləndiriləcək və marşrutun əsas hissələrində texnoloji proseslər optimallaşdırılacaq.

Qazaxıstan tərəfinin planlara vaxtında əməl etməsi ortamüddətli dövrdə Orta dəhlizin Asiya ilə Avropa arasında əsas tranzit yoluna çevrilməsinə təkan verə bilər.

Dəhlizin açar ölkəsi olan Azərbaycan öz infrastrukturunu təkmilləşdirmək istiqamətində zəruri addımları vaxtında atır. Bu baxımdan, artan yük həcmlərini vaxtında ötürməkdə problemi olmayacaq.

**Siyasi şərhçi Asif Nərimanlının "Yeni Müsavat"a dediyinə görə, quru dəhlizlərin dəniz yollarına alternativ olaraq aktuallaşması 2010-cu illərdə ABŞ-nin Çini dənizdən blokadaya almaq strategiyasının inkişaf etdirməsindən sonra baş verib:** "Orta dəhliz marşrutunun ön plana çıxması da həmin dövrə təsadüf edir. Bir çoxları quru marşrutlarının effektiv olmayacağını hesab edirdi, xüsusilə Qərblə daim qarşıdurma vəziyyətində olan Rusiya və İran faktoruna görə. Lakin Azərbaycanın potensialı və təqdim etdiyi çıxış yolu Orta dəhlizi, ümumilikdə quru marşrutlarının perspektivlərini gücləndirib. Söhbət Rusiya və İran üzərindən keçən dəhlizlərin Şimal-Cənub layihəsi ilə Azərbaycanda Şərq-Qərb marşrutuna birləşdirilməsi və daşımaların bu istiqamətdə reallaşdırılmasından gedir. Azərbaycan iki potensial tranzit xətti təklif edir: biri əvvəldən mövcud olan Gürcüstandır, digəri isə Zəngəzur dəhlizi. Bu, Azərbaycanı Avrasiyanın nəqliyyat şəbəkəsində mühüm haba çevirir. İran müharibəsi başladıqdan sonra bu marşrut daha da aktuallaşdı. Bəzən İran müharibəsinin TRİPP layihəsini - Zənhəzur dəhlizini arxa plana keçirdiyinə dair fikirlər irəli sürülür, lakin reallıqda bunun əksi daha aydın görünür. Çünki Orta dəhlizin Azərbaycan habında təkcə Çinin, o cümlədən Mərkəzi Asiya ölkələrinin yox, çətinliklərlə üzləşən və Avrasiyanın nəqliyyat şəbəkəsindən kənarda qalmaq istəməyən Rusiya və İran, o cümlədən ABŞ və Avropa da maraqlıdır. Bu kontekstdə Azərbaycan habının quru marşrutlarda Hörmüz boğazı qədər strateji əhəmiyyət daşıdığını və bu əhəmiyyətin getdikdə artdığını deyə bilərik".

Ekspertə görə, Orta dəhlizin rentabelliyini artırmaq üçün Cənubi Qafqaz müstəvisində başda Zəngəzur dəhlizi olmaqla, regional kommunikasiyanın tam bərpa edilməsi reallaşmalı, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizində yarımçıq qalan işlər həyata keçirilməlidir: "O cümlədən burada Mərkəzi Asiya regionu ilə əlaqələr xüsusi əhəmiyyət daşıyır. Fikrimcə, Azərbaycan bu prosesdə regional lider rolundadır və Bakının addımları yaxın perspektivdə Orta dəhlizin işləkliyini daha da gücləndirə bilər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**



# Yayda qızıl daha da bahalaşacaq

**Son aylarda dünya bazarlarında qızılın qiymətinin rekord həddə yaxınlaşması Azərbaycanda da zinət əşyaları və qiymətli metallar bazarına təsirsiz ötüşməyib. Xüsusilə Ramazan və yay mövsümü ərəfəsində toy hazırlıqlarının artması fonunda qızıl və gümüşə tələbat yüksəlib, bu isə qiymətlərdə nəzərəçarpacaq bahalaşma yaradıb.**

Azərbaycan Zərgərlər Assosiasiyasının sədr müavini, iqtisadçı Rövşən Əmircanov Modern.az-a açıqlamasında ölkəmizdə qızıl və gümüş qiymətlərinin artıb-artmayacağı haqqında məsələlərə aydınlıq gətirib. O deyib ki, hazırkı qiymət artımını əsasən dünya bazarlarında müşahidə olunan proseslərlə əlaqələndirmək məqsədəuyğundur: "Son günlər beynəlxalq bazarlarda qızıl və gümüşün qiymətində artım qeydə alınıb. Mayın 7-də qızılın bir unsiyası 4 738 ABŞ dolları, gümüşün bir unsiyası isə 79 ABŞ dolları səviyyəsinə yüksəlmişdir. Bu artıma ABŞ dollarının zəifləməsi, faiz dərəcələri ilə bağlı gözləntilər, eləcə də qlobal iqtisadi və geosiyasi qeyri-müəyyənliklər təsir göstərən əsas amillər sırasındadır".

**Ekspert deyir ki, Azərbaycan bazarında qızıl və gümüşün qiymətinə ən çox bu amillər təsir edir:** "Yerli bazarda qızıl və gümüşün qiymətinin formalaşmasına ilk növbədə beynəlxalq birjalarda bu metalların unsiya üzrə dəyəri təsir göstərir. Bununla yanaşı, məzənnə dəyişiklikləri, idxal xərcləri, emal və istehsal xərcləri, pərakəndə satış zəncirində yaranan əlavə xərclər, habelə zərgərlik məmulatının dizaynı, çəkisi, əyarı və işlənmə səviyyəsi də yekun qiymətə təsir edən amillərdəndir. Dünya bazarında qiymət artımı baş verdikdə, bu proses müəyyən müddət sonra Azərbaycan bazarında da özünü göstərir. Bununla belə, yerli bazarda qiymət dəyişiklikləri hər zaman beynəlxalq birja qiymətləri ilə eyni sürətdə və eyni həcmdə baş vermir".

Bəs qiymət artımın yay mövsümü və toy sezonunda davam edəcəyi gözlənilirmi?

**Ekspert:** "Yay mövsümü və toy dövründə zərgərlik məmulatlarına tələbat ənənəvi olaraq artır. Bu baxımdan, daxili bazarda qızıl və gümüş məmulatlarına marağın yüksək qalması mümkündür. Qızıl şəxsi istifadə, hədiyyə və ya toy məqsədilə zərgərlik məmulatı kimi alınırsa, alış qərarının yalnız qısamüddətli qiymət enişi gözləntisi əsasında təxirə salınması hər zaman məqsədəuyğun nəticə verməyə bilər. Lakin investisiya məqsədilə qızıl almağı planlaşdıran şəxslərin daha ehtiyatlı davranması və qiymətlərdə kəskin dəyişikliklərin mümkünlüyünü nəzərə alması vacibdir. Bu halda birdəfəlik böyük məbləğlə alış etmək əvəzinə, mərhələli alış strategiyası daha rasional yanaşma hesab oluna bilər".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 18 (8867) 13 may 2026

## Bunları bilirsinizmi?

* Qarğalar qarışqaları əzib bədənlərinə sürtməklə parazitləri özlərindən uzaqlaşdırırlar.
* ABŞ-də prezident olmaq üçün əhalinin 27%-nin səsini toplamaq kifayətdir.
* Kentukki dağlarında mavi dərili insanlar yaşayır.
* Onlayn sifariş verilən ilk şeylərdən biri pizza idi.
* Çində yaşayan monqolların sayı Monqolustanda yaşayan monqolların sayından çoxdur.
* Əsir çitalar çox vaxt itlərlə yaşayır, çünki itlər onları sakitləşdirir.

May



## Anadangəlmə korluğun faydası varmış

**Qərbi Avstraliya Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, anadangəlmə qabıq korluğu (kortikal korluq) insanı şizofreniyanın inkişafından qoruya bilər. Araşdırmanın nəticələri "Schizophrenia Bulletin" (SchizoB) elmi jurnalında dərc olunub.**

Alimlər 1980-2001-ci illər arasında Qərbi Avstraliyada doğulan təxminən 500 min uşağın məlumatlarını təhlil ediblər. Bu dövr ərzində 1870 nəfərə şizofreniya diaqnozu qoyulub. Lakin anadangəlmə qabıq korluğundan - beynin görmə qabığının zədələnməsi nəticəsində görmə qabiliyyətini itirmiş 66 uşağın heç birində bu psixi pozuntu qeydə alınmayıb.

Tədqiqat müəllifləri qeyd edirlər ki, belə bir əlaqə hələ XX əsrin ortalarından müzakirə olunur. Ancaq yalnız müasir tibbi məlumat bazaları bu fərziyyəni böyük insan qrupları üzərində yoxlamağa imkan verib.

"Qoruyucu təsirin yalnız qabıq korluğu zamanı müşahidə olunması xüsusi maraq doğurur. Görmə qabiliyyətini sonradan itirən və ya gözlərin zədələnməsi nəticəsində kor olan insanlarda şizofreniyanın inkişaf riski hələ də qalır", - deyə mütəxəssislər bildiriblər.

Tədqiqatçıların fikrincə, bu fenomenin səbəbi beynin ətraf aləmi necə şərh etməyi öyrənməsi ilə bağlıdır. Hazırda şizofreniyaya daha çox proqnozlaşdırma sisteminin pozulması kimi baxılır: beyin təsadüfi siqnallara həddindən artıq əhəmiyyət verməyə başlayır və real hadisələri daxili hiss və düşüncələrdən ayırmaqda çətinlik çəkir.

Görmə qabığı yalnız təsvirlərin işlənməsində deyil, həm də öyrənmə, diqqət və məlumatların qiymətləndirilməsi prosesində mühüm rol oynayır. Əgər beyin doğuşdan vizual siqnallar almırsa, bu nahiyə yenidən formalaşır və nitq, yaddaş, eləcə də məntiqi təfəkkür kimi digər funksiyaların icrasına cəlb olunur.

Alimlərin sözlərinə görə, bu cür erkən yenidənqurma beynin fəaliyyətini daha sabit edə və şizofreniya üçün xarakterik olan qavrayış səhvlərinin yaranma ehtimalını azalda bilər.

# Ev heyvanlarını manqaldan uzaq saxlayın



**Tonqal və ya manqaldan çıxan tüstünün tərkibindəki zəhərli yanma məhsulları ev heyvanlarının həm gözlərinə, həm də tənəffüs sisteminə mənfi təsir göstərir.**

Oxu.az-ın məlumatına görə, bu xəbərdarlıqla baytar həkim Natalya Kolesnikova Gazeta.ru-ya açıqlamasında çıxış edib.

"Manqal və tonqal külü heyvanın gözünə düşərək yaşarma və müxtəlif zədələrlə nəticələnə bilər. Gözün yanması görmənin kəskin zəifləməsinə səbəb olur. Bundan başqa, zəhərli tüstü hissəcikləri ağciyərlərə keçərək nəfəsalmanı ağırlaşdırır, güclü qıcıqlanma, boğulma və öskürək kimi problemlər yaradır", - deyə mütəxəssis bildirib.

Ev heyvanlarını od və manqaldan minimum 3-5 metr uzaqlıqda saxlamaq tövsiyə olunur. Onların atəşə yaxınlaşmasının qarşısını almaq vacibdir. Çünki tüstüdən zəhərlənmə ilə yanaşı, isti şişlər və manqal səthi dəridə ağır yanıqlara səbəb ola bilər.

Mütəxəssisin sözlərinə görə, ocağın ətrafına heyvanları uzaqlaşdıran qoxular - istiot, xardal və ya sitrus meyvələri qoymaq faydalıdır. Belə ki, itlər və pişiklər bu qoxulardan çəkinirlər.

Heyvanınızın tonqala və ya manqala yaxınlaşdığını görsəniz, onun vəziyyətinə xüsusi diqqət yetirin.

"Manqaldan qalxan tüstü yalnız pis qoxu demək deyil, o, ev heyvanının həyatı üçün təhlükəli olan toksik maddələrin toplusudur. Tüstüyə məruz qaldıqdan sonra dördayaqlı dostunuzda şiddətli öskürək, xırıltılı nəfəsalma, müvazinətin itirilməsi, qusma, ishal və ya həddindən artıq ağızsuyu ifrazı müşahidə olunarsa, ləngimədən baytar həkimə müraciət etmək lazımdır. Belə hallarda ehtiyat tədbirləri görmək ciddi fəsadların qarşısını ala bilər", - deyə N.Kolesnikova fikrini tamamlayıb.

## Baham adalarında turistlər üçün alkoqol qadağası

**Baham adalarında keçiriləcək ümumi seçkilərlə əlaqədar mayın 12-də alkoqol satışına müvəqqəti qadağa tətbiq olunacaq.**

Oxu.az xəbər verir ki, bu barədə "The Sun" nəşri məlumat yayıb.

Məlumata görə, qadağa yerli vaxtla saat 08:00-dan 18:00-dək qüvvədə olacaq və ölkə ərazisində bütün alkoqollu içkilərin satışına şamil ediləcək.

Məhdudiyyət turistlərə və kruiz sərnişinlərinə də təsir edəcək. Qadağa "Royal Caribbean" şirkətinə məxsus CocoCay kimi özəl kruiz adalarında da tətbiq olunacaq.

Şirkət bildirib ki, sahildə yerləşən barlarda alkoqol satılmayacaq, lakin kruiz gəmilərinin özündə içkilər əlçatan olacaq.

Bəzi sərnişinlər isə qərarın səfərə az müddət qalmış açıqlanmasından narazılıq ediblər.

Sosial şəbəkədə paylaşım edən turistlərdən biri bildirib ki, 40 illik evlilik yubileyini qeyd etmək üçün planlaşdırdıqları kruiz səfərində belə bir məhdudiyyətlə qarşılaşacaqlarını əvvəlcədən bilməyiblər.

## Çirkli hava insan bədənini gizlicə dəyişirmiş



**Havanın çirklənməsi qidalanma və fiziki aktivlik səviyyəsi dəyişməz qalsa belə, piyin toplanmasına və əzələ kütləsinin itirilməsinə səbəb ola bilər.**

Oxu.az xəbər verir ki, bu barədə Balear Adaları Sağlamlıq Araşdırmaları İnstitutunun tədqiqatçılarının nəticələri "Diabetes Care" jurnalında dərc olunub.

Alimlər İspaniyada yaşayan, artıq çəki və metabolik sindromdan - yüksək qan şəkəri, hipertoniya və xolesterin mübadiləsinin pozulmasının birləşməsindən əziyyət çəkən 55-75 yaş arası 1454 nəfərin məlumatlarını təhlil ediblər. İştirakçılar çirklənmə səviyyəsinin yüksək olduğu Barselona da daxil olmaqla, beş fərqli şəhərdə yaşayırdılar.

Tədqiqatçılar havanı çirkləndirən üç əsas amilin - PM2.5 incə dispersiyalı hissəciklərin, azot dioksidinin və əsasən dizel mühərriklərinin fəaliyyəti nəticəsində yaranan hisin təsirini qiymətləndiriblər.

Əksər oxşar tədqiqatlardan fərqli olaraq, yeni araşdırmada alimlər yalnız çəki ölçməklə kifayətlənməyiblər. İştirakçılara üç dəfə - araşdırmanın əvvəlində, bir il sonra və üç il sonra - DXA densitometriyası tətbiq olunub. Bu üsul piy və əzələ toxumasının miqdarını ayrı-ayrılıqda qiymətləndirməyə, həmçinin piyin bədəndə hansı nahiyələrdə toplandığını dəqiq müəyyən etməyə imkan verir.

Məlum olub ki, daha çirkli havası olan ərazilərdə yaşayan insanlarda zaman keçdikcə bədəndəki piy faizi artır, əzələ kütləsi isə azalır. Xüsusilə hisslə bağlı güclü əlaqə müşahidə olunub. Belə ki, üç il ərzində ən çirkli bölgələrin sakinləri təxminən bir kiloqram əzələ toxuması itiriblər.

Bundan əlavə, tədqiqat ilk dəfə olaraq havanın çirklənməsi ilə daxili orqanları əhatə edən qarın boşluğundakı dərin piyin - visseral piyin toplanması arasında əlaqəni ortaya qoyub. Bu növ piy xüsusilə təhlükəli hesab olunur. Çünki o, xroniki iltihab, diabet və ürək-damar xəstəlikləri riski ilə əlaqələndirilir.

Tədqiqatçıların sözlərinə görə, xırda çirkləndirici hissəciklər qan dövranına daxil olaraq sistemli iltihab yarada bilər. Bu isə maddələr mübadiləsinə və bədəndə piyin paylanmasına təsir göstərir.

Bununla belə, müəlliflər vurğulayırlar ki, bu araşdırma yalnız əlaqəni aşkar edib və hələlik birbaşa səbəb-nəticə münasibətini tam sübut etmir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lìsenziya N: B 114
SAYI: 1.500

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.